# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Zərifə xanım Əliyeva: Azərbaycanın qürurla andığı qadın



3

№ 140 (7308)

8 avqust 2025-ci il.
Qiymәti 60 qәpik

# Prezident İlham Əliyev ABŞ-da işgüzar səfərdədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının (ABŞ) Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtona işgüzar səfərə gəlib. Dövlətimizin başçısını "Joint Base Andrews" hərbi hava bazasında rəsmi şəxslər qarşılayıblar.

# Zəngəzur dəhlizi və Rusiya

*Moskva Qafqazda mövqeyinin zəifləməsinin günahını kənarda axtarır*




4

## Bir şəhidin həyat hekayəsi



8

## Yeni virus dalğası: hər kəs xəstədir - nə etməliyik?



13

## "Hər şey plana uyğun getsə Bakı, İrəvan və Vaşinqton öz məqsədinə çatar"



14

## "Barselona"da qalmaqal - Ter Ştegen kapitanlıqdan məhrum edilir



16

## Bu gündən isti hava dalğası zəifləyəcək



16

# Güclü iqtisadiyyat və dinamik inkişaf

## Prezident İlham Əliyev: "Azərbaycan o ölkələrdəndir ki, öz sözünü açıq deyir, müstəqil siyasət aparır"




Azərbaycan dünyada güclü və nüfuzlu dövlət və davamlı inkişafın təmin olunduğu ölkə kimi tanınır. Ölkə həyatının bütün sahələrində verilən vədlər hamısı yerinə yetirilmiş və sosial problemləri həll edilmişdir. Həyata keçirilən iqtisadi siyasətin əsasən, sosialyönümlü mahiyyət daşıması bir sıra reallıqlarla şərtlənərək, cəmiyyətin sosial sifarişini əks etdirmişdir. Paytaxtla regionlar arasında inkişaf fərqini aradan qaldırmağa hesablanmış Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları bölgələrdə infrastrukturun yenilənməsi, rayonların simasının əhəmiyyətli dərəcədə müasirləşməsində mühüm rol oynayıb. Bölgələrdə istehsal müəssisələrinin dirçəlişi və yeni sənaye obyektlərinin yaradılması, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, aqrar sektorun müxtəlif dəstək mexanizmləri və innovativ üsullarla inkişaf etdirilməsi, müasir infrastrukturun, yeni iş yerlərinin yaradılması dövlət proqramlarının reallaşdırılmasında əsas nailiyyətlər sırasında qeyd edilməlidir. Azərbaycanın inkişaf parametrlərinə görə dünyada lider mövqeyə malik olması bu uğurlara söykənir.

Ötən 22 illik tariximiz Azərbaycanın böyük bir salnaməsini yaratmış, güclü iqtisadiyyata, dinamik inkişafa, dünya dövlətləri sırasında xüsusi imicə malik olan dövlət kimi öz imicini təsdiqləmişdir. Dövlət siyasətinin müasir modelini yaradan Azərbaycan Prezidenti İlham Əliyevin yüksək idarəçilik məharəti, qətiyyəti və milli maraqlara əsaslanan daxili və xarici siyasəti nəticəsində bütün sferalarda əldə olunan nailiyyətlərin kökündə müdrik siyasət, möhkəm siyasi iradə və xalq-dövlət birliyinin real əsasları dayanır. Reallaşan kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat və ən əsası da xalq-iqtidar birliyi Azərbaycanın əsas inkişaf göstəriciləri sırasında olan amillərdir. Dövlət başçısı prezidentliyi dövründə ölkə həyatının bütün sahələrində verdiyi vədlərin hamısının yerinə yetirilməsinə nail olmuşdur.

Ölkəmizin istənilən bir sahəsində uğurları görmək mümkündür ki, bu da insanların firavanlığının təminində mühüm rola malikdir. Görülən işlər deməyə əsas verir ki, Prezident İlham Əliyev hər bir Azərbaycan vətəndaşının Prezidenti oldu və xalqın etimadını doğrultdu. Ölkə başçısının gördüyü işlər, həyata keçirdiyi bütün layihə və proqramlar, ilk öncə milli maraqları özündə əks etdirir. Prezident İlham Əliyev dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirib, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olub. Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib. Güclü xalq, güclü dövlət, güclü lider vəhdəti müasir müstəqil Azərbaycanın devizinə çevrilib. Bu gün Azərbaycanda güclü dövlət idarəçiliyi mövcuddur. Müstəqil Azərbaycanın yürütdüyü siyasət ölkəmizin etibarlı və strateji tərəfdaş kimi nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Prezident İlham Əliyevin yeritdiyi müdrik və uzaqgörən siyasəti qısa müddətdə Azərbaycanı dünya birliyinin sayılıb-seçilən üzvünə, beynəlxalq tədbirlərin, qloballaşan dünyanın problemlərinin çözüldüyü məkana çevirdi. İnkişafın Azərbaycan modeli, multikulturalizm modelimiz dünyanın diqqətini özünə çəkdi, bir çox ölkədə öyrənilməyə başlandı və örnəyə çevrildi. Azərbaycan kosmik dövlətlər ailəsinə daxil oldu, müasir, modern dövlətə çevrildi. Prezident İlham Əliyev Ulu Öndərimizin gördüyü möhtəşəm işləri eyni qətiyyət və prinsipiallıqla davam etdirərək Azərbaycanın iqtisadi, siyasi, hərbi qüdrətini, nüfuzunu daim artırır, xalqın güzəranını və rifahını dönmədən yüksəldir. Azərbaycan öz qüdrətli Liderinin uzaqgörən, qətiyyətli siyasəti ilə regionda yaranmış yeni reallıqlar fonunda daha möhtəşəm gələcəyə doğru inamla addımlayır.

### DÖVLƏT PROQRAMLARI VƏ REGİONLARA YATIRILMIŞ İNVESTİSİYALAR

Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının qəbulu və qarşıya qoyulan vəzifələrin uğurlu icrası nəticəsində abadlaşan bölgələrimiz, inkişaf edən ölkəmiz Azərbaycanın dinamik inkişafının göstəriciləridir. Paytaxtla regionlar arasında inkişaf fərqini aradan qaldırmağa hesablanmış regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları bölgələrdə infrastrukturun yenilənməsi, rayonların simasının əhəmiyyətli dərəcədə müasirləşməsində mühüm rol oynayıb. Bölgələrdə istehsal müəssisələrinin dirçəlişi və yeni sənaye obyektlərinin yaradılması, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, aqrar sektorun müxtəlif dəstək mexanizmləri və innovativ üsullarla inkişaf etdirilməsi, müasir infrastrukturun, yeni iş yerlərinin yaradılması dövlət proqramlarının reallaşdırılmasında əsas nailiyyətlər sırasında qeyd edilməlidir. Ümumilikdə 4 dövlət proqramı üzrə regionlara yatırılmış investisiyaların həcmi 104 milyard manat təşkil edir. 2004-cü ildən bəri regionlarda 1,8 milyondan çox yeni iş yeri və 52 mindən artıq yeni müəssisə yaradılıb. Statistik rəqəmlərə əsasən. ölkədə 60-dan çox yeni elektrik stansiyası istismara verilib. Bu illər ərzində Azərbaycan elektrik enerjisini idxal edən ölkədən ixrac edən ölkəyə çevrilib. Bu illərdə 10 hava limanı tikilib və yenidən qurulub. 3.600-dən çox məktəb, 760-a yaxın tibb müəssisəsi tikilib və ya təmir olunub, 50-yə yaxın Olimpiya İdman Kompleksi tikilib, çoxlu sayda körpü və tunellər, yollar istifadəyə verilib. İstehsal və sənaye müəssisələrinin çoxu bölgələrə aiddir. Hazırlanan növbəti dövlət proqramı da regionların inkişafının müasir tələblərə uyğunlaşdırılmasına hesablanıb. Bu göstəricilər insanların rahatlıq və firavanlığını yüksəldib.

### ”AZƏRBAYCAN DÜNYADA ÇOX ETİBARLI VƏ CİDDİ TƏRƏFDAŞ KİMİ TANINIR”

Müasir dövrün qlobal çağırışlarına dəstək verən müstəqil Azərbaycanın yürütdüyü siyasət, ölkəmizin etibarlı və strateji tərəfdaş kimi, nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarının mənzərəsini dəyişdirməyə qadir olan iri layihələrin təşəbbüskarı kimi çıxış etmək imkanı yaratmışdır. Regionda yeni reallıqların müəllifi və postmünaqişə mərhələsinin ümumi geosiyasi ab-havasının yenilənməsində əsas söz sahibi olan Azərbaycan regional əməkdaşlıq, sabitlik və inkişaf üçün genişmiqyaslı təşəbbüslər irəli sürür. ”Bu gün sirr deyil ki, Azərbaycan dünyada çox etibarlı və ciddi tərəfdaş kimi tanınır. Azərbaycan o ölkələrdəndir ki, öz sözünü açıq deyir, müstəqil siyasət aparır. Əlbəttə ki, bunun təməlində həm hərbi gücümüz, həm də şanlı Qələbəmiz dayanır”, - deyə Prezident bildirib. Cənab İlham Əliyevin dünyada gedən geosiyasi və geoiqtisadi proseslərə müdrik liderə məxsus böyük uzaqgörənliklə yanaşması apardığı siyasətin əsas cəhətlərindən biridir. Azərbaycan Prezidenti təcrübəli siyasətçi kimi ümummilli və qlobal məsələləri böyük peşəkarlıqla həll edir, hadisə və proseslərin axarını əvvəlcədən müəyyənləşdirərək gələcəyin tarixini yaradır, parlaq zəkası, iti mühakimə qabiliyyəti, möhkəm xarakteri və mürəkkəb situasiyalarda düzgün seçim etməsi ilə dünyanın tanınmış dövlət xadimləri içərisində xüsusi yer tutur.

**Zümrüd BAYRAMOVA**





## Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoff ilə görüşü olub

***Avqustun 7-də Vaşinqtonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoff ilə görüşü olub. AZƏRTAC xəbər verir ki, əvvəlcə dövlətimizin başçısı İlham Əliyevin və ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoffun iştirakı ilə SOCAR-la ”ExxonMobil” şirkəti arasında ”Əməkdaşlıq haqqında Memorandum” imzalanıb.***

Sənədi Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və ”ExxonMobil” şirkətinin vitse-prezidenti Con Ardill imzalayıblar. Sonra dövlətimizin başçısı İlham Əliyev ilə ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoffun görüşü olub.

# Zərifə xanım Əliyeva: Azərbaycanın qürurla andığı qadın

## 8 avqust - Beynəlxalq Oftalmoloqlar Günüdür. Bu sahədə xüsusi imzası olan Zərifə xanım Əliyevanı qürurla anırıq!

***Bütün keyfiyyətləri ilə əsl Azərbaycan xanımı, görkəmli və eyni zamanda ən yüksək insani dəyərlərə malik oftalmoloq həkim, Ümummilli Liderimiz Heydər Əliyevin sədaqətli ömür-gün yoldaşı, ölkəmizə iki layiqli övlad, eyni zamanda müzəffər sərkərdə, lider bəxş edən qayğıkeş ana obrazıdır, Zərifə xanım Əliyeva. Hər zaman nur saçan qadının həyat yoluna nəzər saldıqca, gözlər qarşısında Azərbaycanın daim qürurla andığı bir qadın canlanır. Tarix məhz belə insanların sayəsində yaranır, onların nəcibləşən ömürləri gələcək nəsillərə örnək, nümunə olur.***

### İşıqlı ideallara doğru

Bir bahar günündə dünyaya göz açan, həyatının bütün illərini bahar ömrü yaşadığı üçün elə baharda da dünyadan köçən Zərifə xanım Əliyeva görkəmli həkim, sədaqətli və mehriban həyat yoldaşı, qayğıkeş ana, əsl insan kimi hər an gözəl duyğularla anılır.

Zərifə xanım Əliyeva qədim Naxçıvan diyarında, Şərur rayonunun Şahtaxtı kəndində, görkəmli alim və siyasi xadim Əziz Əliyevin ocağında dünyaya göz açmışdı. Uşaqlıq və ilk gənclik illəri Şahtaxtıda keçən Zərifə Əliyeva bu kəndin maarifçi mühitinin işıqlı ənənələrindən faydalanmışdı. Zəngin təhsil ənənələri olan ziyalı ailəsinin özünəməxsus tərbiyə üsulları onu hələ uşaq yaşlarından, məktəb illərindən etibarən elmə, işıqlı ideallara doğru istiqamətləndirmişdi.

O, 1942-ci ildə Bakıda orta məktəbi əla qiymətlərlə bitirmiş və elə həmin il Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuşdu. Ali təhsil almaq məqamında Zərifə Əliyevanın həkimlik sənətini seçməsi atası, tibb elmləri doktoru, professor Əziz Əliyevin yolunu davam etdirmək arzusundan doğmuşdursa, göz həkimliyini ixtisas kimi seçməsi onun xeyirxahlığından, işıqlı insan olmasından irəli gəlmişdi. Tələbəlik həyatının ilk günlərindən fitri istedadı, dərin zəkası, geniş dünyagörüşü, iti məntiqi təfəkkürü, təvazökarlığı və sadəliyi, insanpərvərliyi və vətənpərvərliyi ilə tələbələr arasında hörmət qazanmış, professor-müəllim heyətinin diqqətini cəlb etmişdi.

Fundamental tibbi biliklərə dərindən yiyələnən Zərifə xanım Əliyevanın qəlbində insanların gözlərinə nur bəxş etmək amalı baş qaldırmışdı və O, öz gələcək fəaliyyətini tibbin oftalmologiya sahəsinə həsr etməyi qarşısına məqsəd qoymuşdu. Görünür, son dərəcə zəriflik və incəlik, həssaslıq və nəciblik tələb edən göz həkimliyi Zərifə xanımın təbiətindəki nadir xüsusiyyətlərə daha yaxın idi. Zərifə xanımın timsalında bir daha sübuta yetirildi ki, peşəsini ürəkdən sevən həkim, həqiqətən, xarüqələr yaratmaq iqtidarındadır.

### Gözlərə nur həkim

Zərifə xanım Əliyeva ötən əsrin 50-ci illərində öz xeyirxah sənəti ilə əsl vətəndaş mövqeyində dayanaraq xalqımızın bəlasına çevrilmiş



traxoma xəstəliyinin qarşısını almaq üçün ciddi və məqsədyönlü müalicə-profilaktika tədbirlərinin həyata keçirilməsi istiqamətində mübarizəyə başlamışdı. Onun başlıca məqsədi nəyin bahasına olursa-olsun, tezliklə Azərbaycanda traxoma xəstəliyini törədən səbəbləri aşkar edib aradan qaldırmaq, optimal müalicə üsullarını tapmaq, müvafiq profilaktik tədbirləri vaxtında həyata keçirməkdən ibarət idi. İnsanları korluq əzabından qurtarmaq zərurətindən doğan bu şəfqətli tədbirlərin həyata keçirilməsi ağır zəhmət və uzunmüddətli vaxt tələb edirdi.

Zərifə xanım Azərbaycanın bütün rayonlarını gəzərək traxoma ocaqlarını aşkar etmiş, özünün tərtib etdiyi müalicə üsullarını həyata keçirmişdir. Onun mövcud müalicə üsulları ilə yanaşı, o dövrün güclü antibiotiki hesab edilən sintomisindən istifadə etməklə müalicə üsullarını həyata keçirməsi bu ağır xəstəliyin qarşısının alınmasında başlıca rol oynamışdır.

Elmi-tədqiqat mövzusu kimi də Zərifə xanım Əliyevanın göz xəstəliklərinin müasir müalicə üsullarına müraciət etməsi insanlara və onları əhatə edən mühitə daha çox işıq gətirmək qayəsinin ifadəsidir. Zərifə xanım Əliyeva 1959-cu ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş və tibb elmləri namizədi alimlik dərəcəsi almışdır. Namizədlik dissertasiyası kimi bu mövzunun seçilməsi geniş yayılmış traxoma xəstəliyinin ən intensiv müalicə üsullarının müəyyən olunmasına və tətbiq edilib müsbət nəticələr alınmasına şərait yaratmışdır. Elmi fəaliyyətini real həyatla üzvi surətdə əlaqələndirən Zərifə xanım Əliyeva özünün namizədlik dissertasiyası ilə həm tibb elmini yeni ideyalar və metodlarla zənginləşdirmiş, həm də yüzlərlə insana işıq bəxş etmişdir. Hələ XX əsrin 50-ci illərində Zərifə xanım tərəfindən tibb elmi üçün kəşf edilmiş, elmi cəhətdən əsaslandırılmış müalicə üsulları aradan illər keçməsinə baxmayaraq indi də tətbiq edilir və insanlara nur bəxş edir.

Zərifə xanım Əliyeva ciddi elmi-tədqiqat işləri, mürəkkəb cərrahiyyə əməliyyatları ilə yanaşı, elmi-pedaqoji fəaliyyətini də uğurla davam etdirmişdir. Görkəmli alim 1967-ci ildə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dəvət olunmuşdur. Həmin kafedranın müdiri vəzifəsində çalışan Zərifə xanım bu institutda dosentlikdən akademikliyə qədər yüksəlmişdir.

1977-ci ildə Bakıda Zərifə Əliyevanın təşəbbüsü ilə Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir. Bu plenum alimin daha bir keyfiyyətini qabarıq şəkildə üzə çıxarmış, tədbirin gözlənildiyindən də yüksək səviyyədə keçirilməsi Zərifə xanım Əliyevanın təşkilatçılıq bacarığının təzahürünə çevrilmişdir. Bakıda ilk dəfə olaraq belə bir ittifaq miqyaslı plenumun keçirilməsi Azərbaycanda oftalmologiya elminin yeni inkişaf mərhələsinə qədəm qoymasına güclü təkan vermişdir. Zərifə xanım oftalmologiya elminin inkişafı yolunda əldə etdiyi nailiyyətlərə, görmə orqanının peşə patologiyası sahəsində apardığı uğurlu elmi-tədqiqat işlərinə görə 1981-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının Akademik M.Averbax adına mükafatına layiq görülmüşdür.

Zərifə xanım daim həkim-xəstə münasibətinə xüsusi diqqət yetirmişdir. O, dəfələrlə demişdir ki, həkimlə xəstənin birbaşa əlaqəsi müalicənin əhəmiyyətini yüksəldir, xəstəyə ümid verir, onun orqanizminin xəstəliyə qarşı müqavimətini artırır. Zərifə xanım mətbuatda həkim etikası problemlərinə dair maraqlı məqalələr dərc etdirmişdir. Həmin məqalələrdən birində yazırdı: "Əsl həkim yalnız o şəxsdir ki, xəstənin əzablarını öz əzabları bilir və onun üçün sağalıb evinə qayıtmış insanın təbəssümü ən yüksək mükafatdır. Vicdan əsas hakimimizdir. Ən çətin məqamda və ən xoş saatımızda o, bizimlə üzbəüz dayanıb soruşacaq: Sənin ağ xalat geyinməyə haqqın varmı?"

### Tibb elminə saysız töhfə

Zərifə xanım Əliyeva oftalmologiya sahəsində yeni istiqamətlər üzrə tədqiqatlar aparmış, bununla bağlı görülən müalicə-profilaktika tədbirlərinə silsilə işlər həsr etmişdir. Onun "Herpetik göz xəstəliyi", "Ağır virus konyunktivitləri" əsərləri bu qəbildəndir. Görkəmli alimin qələmə aldığı "Terapevtik oftalmologiya", "Oftalmologiyanın aktual məsələləri", "İridodiaqnostikanın əsasları" kitabları bu gün də oftalmoloqların ən çox müraciət etdikləri, oxuyub faydalandıqları elmi ədəbiyyatlardır. Gənc həkimlərə düzgün yol göstərən, istiqamət verən, onların formalaşmasında mühüm əhəmiyyət kəsb edən bu əsərlər heç vaxt aktuallığını itirməyəcəkdir. Zərifə xanım Əliyevanın "Azərbaycanın kimya sənayesi müəssisələrində işçilərdə görmə orqanının vəziyyəti" mövzusundakı doktorluq dissertasiyası tibb elminin cəmiyyətlə əlaqəsi baxımından böyük və qətiyyətli addım idi. O, sadəcə, görmə orqanlarındakı xəstəlikləri deyil, istehsalatda baş verən ictimai və tibbi prosesləri vəhdətdə öyrənmiş, Azərbaycanda ilk dəfə olaraq kimya sənayesi müəssisələrində tibbi laboratoriyalar yaratmışdı.

Görkəmli alim uzun illər respublikanın 10-dan artıq iri sənaye müəssisələrində böyük miqyaslı elmi-tədqiqat işləri aparmış, zərərli maddələrin təkcə görmə orqanlarına deyil, eyni zamanda, digər orqanlara təsirini öyrənmişdir. Aparılan səmərəli elmi-tədqiqat işləri, tətbiq edilən düşünülmüş üsullar həm kimya texnologiyası işçilərinin göz xəstəliklərinin qarşısını almış, həm də istehsalat mühitinin zəhərli maddələrdən təmizlənməsinə şərait yaratmışdır.

Akademik Zərifə xanım Əliyeva 160-dan çox elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin, dərs vəsaitlərinin müəllifidir. Görkəmli alim gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli həkim-oftalmoloqların, professional elmi kadrların yetişdirilməsində böyük xidmətlər göstərmişdir. Zərifə xanımın elmi fəaliyyətini yüksək qiymətləndirən Ulu Öndər deyirdi: "Zərifə xanımın tibb elmi sahəsində xidmətlərindən biri də göz müalicəsi, tədqiqatı idi. Mənə belə gəlir ki, onun iki dəyərli irsi vardır. Birincisi, Azərbaycanda ilk dəfə deontologiyanı bir elm kimi meydana atıbdır. İkincisi, Zərifə xanım çalışıb ki, bizim gələcək nəsilləri irsi xəstəlikdən xilas etsin, sağlamlaşdırsın".

Akademik Zərifə xanım Əliyeva göz xəstəlikləri mütəxəssisi kimi Azərbaycanda bu sahədə elmin əsas yaradıcılarındandır. O, göz xəstəliklərinin müalicəsi problemini elmi məktəb səviyyəsinə çatdırmışdır.

### Sədaqətli həyat yoldaşı, qayğıkeş ana

Deyirlər ki, hər bir kişinin arxasında güclü bir qadın vardır. Bəli, çox yerində deyilmiş fikirdir. Ümummilli Liderimiz Heydər Əliyevin ömür-gün yoldaşı kimi Zərifə xanım Əliyeva Ulu Öndərin Azərbaycanın inkişafı sahəsindəki qətiyyətli mübarizəsinə etibarlı dayaq olmuşdur. Daim yüksək vəzifələrdə çalışan Ulu Öndərin, iki övladının və xəstələrinin qayğıları Zərifə xanımın mənalı ömrünün eyni ahəngli akkordları olmuşdur. Bütün bunlar haqqında Ulu Öndər Heydər Əliyev deyirdi: "Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval-ruhiyyədədirlər. Onlar bu əhval-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar".

Ulu Öndər Heydər Əliyev və Zərifə xanım Əliyeva haqqında Vaqif Mustafayevin "Əsl məhəbbət haqqında" filminə tamaşa edəndə baxmayaraq ki, orta nəsil bu böyük şəxsiyyətlərin nümunəvi, gözəl, səmimi münasibətlərinin şahidi də olublar, lakin bu film insanın qəlbində dərin hisslər oyadır. Ümummilli Liderin Zərifə xanımı xatırlamasındakı bütün cümlələr qarşısında onun ömür-gün yoldaşına bəslədiyi müqəddəs məhəbbətə heyran qalırsan. Bəli, əsl məhəbbət budur: illərin dəyişə bilmədiyi məhəbbət...

Ömrünün mənasını xalqına xidmətdə görən Zərifə xanım Əliyeva həm də o cəhətdən xoşbəxt idi ki, xalqımız, dövlətimiz üçün gərəkli olan iki övladın anası idi. Zərifə xanım Azərbaycana onun xilaskarını bəxş etmişdir. 30 illik işğal altında qalan torpaqlarımızın qurtuluşçusunu bəxş etmişdir. Hər bir Azərbaycan vətəndaşının Prezidenti olmağı bacaran, müzəffər sərkərdə, sevilən Lider olan Ali Baş Komandanımızı bəxş etmişdir. Prezident İlham Əliyev Zərifə xanımı dərin ehtiramla xatırlayaraq demişdir: "Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan amilinə dayanırdı. Çünki o həm peşəkar həkim, eyni zamanda çox xeyirxah insan idi. Böyük Lider, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı olan Zərifə xanım bütün işlərdə ona dayaq olur, onu dəstəkləyirdi. Hər bir insan üçün valideynləri əziz və müqəddəsdir. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur".

Cənab İlham Əliyev bu gün Azərbaycanı dünya dövlətləri içərisində sözü və yeri olan bir ölkə kimi tanıdıb. Heydər Əliyev ideyalarını davam etdirməklə Azərbaycanı inkişaf etmiş ölkələrdən birinə çevirib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, Zərifə xanımın sevimli gəlini Mehriban xanım Əliyeva onun ənənələrini davam etdirir. Hər iki ailədən aldığı yüksək dəyərləri öz şəxsiyyətində birləşdirən Mehriban xanım milli-mənəvi sərvətlərimizin qoruyucusudur. Mehriban xanım Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın ölkənin ictimai-siyasi həyatındakı uğurlu fəaliyyəti, dövlətimiz, dövlətçiliyimiz naminə, xalqın rifahı üçün gördükləri işlər, xeyirxah əməllər bu gün Azərbaycan qadınının yüksək intellektual səviyyəsini və vətənpərvərliyini, eyni zamanda bu ailənin ənənələrinin davam etdirildiyini təsdiq edir.

Gözlərə işıq, qəlblərə nur bəxş edən Zərifə xanım Əliyeva 1985-ci il aprel ayının 15-də əbədiyyətə qovuşmuşdur. İllər bir-birini əvəz etsə də, əbədiyaşar alimin əziz xatirəsi daim ehtiramla yad edilir, işıqlı və nurlu əməlləri bu gün də yaşayır və xatırlanır. İndi onlarla məktəb, xəstəxana, poliklinika, bağ və parklar, küçələr akademik Zərifə xanım Əliyevanın adını daşıyır. Onun xatirəsinə ucaldılan büst və abidələr görkəmli alimə və əsl İnsana olan ehtiramın və məhəbbətin tükənməz təzahürüdür.

***Mətanət Məmmədova***

# Zəngəzur dəhlizi və Rusiya

## *Moskva Qafqazda mövqeyinin zəifləməsinin günahını kənarda axtarır*

***Şimal qonşumuz belə hesab edir ki, "Qafqaz əsrlər boyu bütün Avrasiya məkanının əsas regionlarından biri olub və Rusiyanın tarixi taleyi ilə birbaşa bağlıdır. Sovet İttifaqının dağılmasından sonra burada bir sıra böyük qlobal oyunçuların maraqları bir-biri ilə sıx qarışıb, hər biri öz maraqlarını güdür, bəzən iqtisadiyyatdan çox uzaqlaşır. Qərb ölkələri üçün son üç onillikdə əsas məqsədlərdən biri Qafqazdan Rusiya Federasiyasını qovmaq olub. Üstəlik, bunun üçün müxtəlif səbəblərdən istifadə olunur ki, onlardan biri də bu gün Zəngəzur dəhlizinin yaradılması ola bilər".***

Yanaşma maraqlıdır, ona görə ki, Moskvanın iç üzü açılır, Zəngəzur dəhlizinin açılmasını Azərbaycanın bir hissəsindən digərinə maneəsiz getməyə çalışan Bakının haqq işi hesab etmək əvəzinə, bu istəyi Qərbin maraqları, dəhlizə nəzarət və yaxud aidiyyəti olmayan bir məsələyə bağlamağa çalışır. Maraq iqtisadi olsa belə, bu, yalnız Ermənistanla Azərbaycan arasında çözülməli məsələdir, qeyri-aktorların müdaxiləsi yolverilməzdir.




Kremldə düşünürlər ki, məsələnin tarixi bir neçə onilliklərə gedib çıxır və SSRİ-nin irsi ilə bağlıdır. Problem Ermənistanla Birinci Qarabağ müharibəsindən əvvəl bir neçə avtomobil yolu və Zəngəzur silsiləsi ilə keçən dəmir yolu boyunca aparılan Azərbaycan və onun Türkiyə, Naxçıvan Muxtar Respublikası (MR) ilə sərhəddə yerləşən eksklavı arasında nəqliyyat rabitəsinin xüsusiyyətləri ilə bağlı yaranıb. Lakin 1992-ci ildə hərbi əməliyyatların başlaması və İran sərhədinə yaxın ərazilərin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi ilə əlaqə kəsilib, Azərbaycan Dəmir Yollarına aid olan dəmir yolunun 40 kilometrlik hissəsi sökülüb, sıradan çıxarılıb.

Sonrakı onilliklər ərzində Bakı və İrəvan bu məsələni arxa plana keçiriblər, çünki onların münasibətlərindəki əsas problem Qarabağ idi. Bakı 2020-ci ildə İkinci Qarabağ, Vətən Müharibəsi zamanı həmin əraziləri təkrar nəzarətə götürdü. Həmin vaxt Azərbaycan ordusu Ermənistanın Zəngəzur (erməni tərəfi Sünik adlandırır - müəllif) bölgəsi ilə sərhədin cənub hissəsinə çatdı, bundan sonra Laçın dəhlizi istisna olmaqla, bütün sərhədə nəzarəti ələ keçirdi. 2023-cü ilin sentyabrında keçirilən antiterror tədbirlərindən sonar de-fakto separatçı rejim fəaliyyətini dayandırmaq, 2024-cü ildə isə kağız üzərində olsa da öz varlığına son qoymaq məcburiyyətində qaldı.




Bu gün Azərbaycanın qərb rayonları ilə yarım milyona yaxın insanın yaşadığı Naxçıvanla hələ də birbaşa nəqliyyat əlaqəsi yoxdur və eksklavla əlaqə hava və ya İran ərazisi vasitəsilə həyata keçirilir. Azərbaycanla NMR arasında birbaşa nəqliyyat əlaqələrinin bərpası məsələsi hələ 2020-ci ilin payızında gündəmə gəlmişdi. Daha sonra Azərbaycan Prezidentinin, Ermənistanın Baş nazirinin və Rusiya Prezidentinin 10 noyabr 2020-ci il tarixli Bəyanatında tam atəşkəs elan edilmiş və beləliklə, İkinci Qarabağ müharibəsinin başa çatması ilə bağlı bənddə bütün münaqişənin həllini nəzərdə tutan və iqtisadi zonalara nəqliyyat əlaqələrinin açılmasını nəzərdə tutan bənd daxil edilmişdi. Ermənistan Azərbaycanla Naxçıvan arasında hər iki istiqamətdə nəqliyyat əlaqələrinin təhlükəsizliyinə zəmanət verəcəyini deyirdi, amma etimad mühitinin yaranmaması, Ermənistanın isə bu işi layiqli şəkildə yerinə yetirmək gücündə olmadığını bilən Bakı başqa variantlar təklif etdi. Bakının planlarına görə, Naxçıvanla əlaqə üçün heç bir maneə olmamalıdır və marşrutun özü İranla sərhədin yaxınlığından keçərək Azərbaycanın qərbindəki nəqliyyat magistralı ilə birləşdirilməlidir. Bundan başqa, Türkiyənin Qars şəhərindən Naxçıvana dəmir yolu və avtomobil yolunun çəkilməsi nəzərdə tutulur. Ümumiyyətlə, Zəngəzur dəhlizinin Rusiyadan yan keçməklə Mərkəzi Asiya və Türkiyədən keçməklə Çin və Avropanı birləşdirməli olduğundan Qərb dövlətləri tərəfindən fəal dəstəklənən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (TİTR, Orta Dəhliz) bir hissəsinə çevrilməli olduğu güman edilir. Əliyevin hələ 2021-ci ildə bəyan etdiyi kimi, Zəngəzur Azərbaycanın "tarixi torpaqlarıdır" və bu dəhliz İrəvanın istəyindən asılı olmayaraq açılacaq. İrəvan ciddi şəkildə ehtiyat edir ki, nəqliyyat marşrutu ölkəni İranla sərhədini kəsəcək və Zəngəzur bölgəsinin itirilməsinə gətirib çıxaracaq.

Buna görə də Ermənistan tərəfi hələ 2023-cü ilin oktyabrında "Dünyanın kəsişmə nöqtəsi" kimi təyin etdiyi təkliflə çıxış etdi. Layihə regionda nəqliyyat və enerji infrastrukturunun modernləşdirilməsi və tikintisi vasitəsilə Ermənistan, Türkiyə, Azərbaycan, Gürcüstan və İran arasında əlaqələrin genişləndirilməsini nəzərdə tutur. Eyni zamanda, İrəvan öz suverenliyində israr edir və öz ərazisindən tranzitə, o cümlədən gömrük, pasport nəzarəti və təhlükəsizlik funksiyalarını yerinə yetirməklə müstəqil şəkildə nəzarət etmək istəyir.



Azərbaycan və Ermənistan bu illər ərzində konkret nəticə əldə edə, yəni sülh müqaviləsi imzalamasalar da, məsələnin həllinə ciddi şəkildə yaxınlaşa biliblər. Bəzi sənədlər var ki, bu da ölkələr arasında sülh müqaviləsinin imzalanmasını çətinləşdirir. Üstəlik, hətta bir sıra yüksək səviyyəli görüşlər də vəziyyəti yaxşılaşdıra bilməyib. Belə ki, iyun ayında Ermənistanın baş naziri İstanbulun erməni icması ilə görüşündə tələsə qapılmamağa çağırıb, Zəngəzur dəhlizinin olmayacağını, "qarşılıqlı hörmət, suverenlik və ölkələrin yurisdiksiyasına" əsaslanan "Sülh yollarının kəsişməsi"nin olacağını vurğulayıb. Öz növbəsində, iyulun 10-da BƏƏ-də Paşinyanla danışıqlardan sonra Azərbaycan prezidenti iyulun 19-da keçirilən III Şuşa Qlobal Media Forumu zamanı bəyan edib ki, Zəngəzur dəhlizində dəmir yolunun Azərbaycan hissəsinin tikintisi 2026-cı ilin yazında yekunlaşacaq və layihənin özü həyata keçiriləcək. Eyni zamanda, Bakı sözlə yanaşı, həm də praktiki fəaliyyət göstərir, öz ərazisində müvafiq infrastrukturu fəal şəkildə qurur. Məsələn, uzunluğu 110 km-dən artıq olan Horadiz-Ağbənd dəmir yolu xətti çəkilir və bununla paralel olaraq 123,5 km uzunluğunda avtomobil yolu tamamlanır. Həmçinin beş il ərzində tamamlanması planlaşdırılan Türkiyənin Qarsından Naxçıvana dəmir yolu (224 km) layihəsi də icra mərhələsindədir.

İndiki şəraitdə Azərbaycanın maraqları göz qabağındadır. Naxçıvana və Türkiyəyə birbaşa çıxışla yanaşı, ölkə İran vasitəsilə qaz tranzitindən asılılığını azalda biləcək və Azərbaycan mallarının ixracı 710 milyon dollar arta bilər. Bundan əlavə, Bakı ilə Ankara arasında əlaqələr intensivləşir və bu gün onlar bütün türkdilli dövlətləri birləşdirən bir növ inteqrasiya layihəsi olan "Turan birliyi"ni xatırladılar. Bu da öz növbəsində Azərbaycanın regionda siyasi rolunu əhəmiyyətli dərəcədə artıracaq.

Rus politoloqlar, ideoloji ruporlar düşünürlər ki, Ermənistan üçün Zəngəzur dəhlizinin Azərbaycanın təbliğ etdiyi formada meydana çıxması çox da məntiqli deyil. İrəvan ona heç bir nəzarət əldə etməyəcək və buna görə də ciddi maliyyə faydası olmayacaq. Üstəlik, Ermənistan hakimiyyəti qorxur ki, gələcəkdə dəhliz Azərbaycanın Ermənistan torpaqlarına yeni ekspansiyaya başlayacağı məkana çevriləcək. Eyni zamanda İrəvan etiraf edir ki, iki il ərzində regionda kommunikasiyaların açılması ölkəyə ÜDM-də 30% artım verəcək. Düzdür, əgər bu, Ermənistanın şərtləri ilə baş verərsə. Rusiya öz vasitəçilik missiyasını təklif edir, amma Ermənistanın Kremlə inamı qalmayıb.

Rusiya birbaşa Bakının təkliflərinə qarşı çıxır, Zəngəzur dəhlizini ölkənin regionda tranzit rolunu itirməsinə, uzunmüddətli perspektivdə isə burada Türkiyə və Azərbaycanın mövqelərinin möhkəmlənməsinə səbəb ola biləcək problem hesab edir. Buna görə də Tehran öz ərazisindən keçən 107 km-lik "Araz" tranzit dəhlizi şəklində alternativ layihəsini təklif edir (Ağbənd - Kələlə - Culfa). Son hadisələr onu göstərir ki, bir sıra Qərb oyunçuları Moskvanın danışıqlar prosesində iştirakının qarşısını almaq üçün hər şeyi etməyi planlaşdırır və bu, Rusiya Federasiyasının regionda mövqelərinə ağır zərbə vura bilər və artıq vurmaqdadır. Nəticədə Bakı təkcə Türkiyənin deyil, Qərb dövlətlərinin də dəstəyini hiss etməyə başlayıb. Bunun nəticələrini Azərbaycanla Rusiya arasında münasibətlərin sürətlə korlanmağa başladığı və RusiyanınBakıya qarşı bir sıra son dərəcə qeyri-dost addımlar atdığı son aylarda müşahidə etmək olar. İyulun ikinci yarısında amerikalılar qəfildən Zəngəzur dəhlizinin taleyi ilə bağlı narahatlıq keçirdiklərini bəyan etdilər.

Xüsusilə, vasitəçilik və sülh haqqında danışan Donald Trampın administrasiyası öz planını təklif edib ki, ona görə də tərəflər regionda nəqliyyat marşrutlarının idarə edilməsini Amerikanın kommersiya və logistika şirkətinə verməli idilər. ABŞ-ın Türkiyədəki səfiri Tom Barak Birləşmiş Ştatların avtomobil yolunun inkişafı üçün Zəngəzur dəhlizini 100 il müddətinə icarəyə götürməyə hazır olduğunu açıqlayıb. Aydındır ki, bu təklif Rusiyanı vəziyyətin həlli, dəhlizin idarəçiliyinin ABŞ-a verilməsi prosesindən tamamilə kənarlaşdırır. Üstəlik, bir sıra Qərb KİV-ləri artıq Ermənistan, Azərbaycan və ABŞ arasında "Tramp körpüsünün" yaradılmasına dair məxfi memorandum barədə məlumat verməyə tələsdilər, ona görə də İrəvan marşrutdan istifadədən gəlirin cəmi 30%-ni alacaq. Lakin bütün bunlar hələlik şayiələrdir və Ermənistan hökuməti İspaniyanın Periodista Digital nəşrinin bu sövdələşmə ilə bağlı xəbərini rəsmən təkzib edib. Amma İrəvanın keçmiş KTMT müttəfiqlərindən uzaqlaşdığını nəzərə alsaq, odsuz tüstü olmayanda məhz belə olması mümkündür. Maraqlı bir sual yaranır, ABŞ-ın da maraqları Aİ ölkələrinin maraqları kimi regionda sülh və sabitliyi qorumaq istəyindən çox uzaq olacaq, yoxsa?..

Rusiyanın regionda neqativ ssenarinin inkişafının qarşısını almaq üçün istifadə edə biləcəyi alətləri yoxdur. Onlardan biri Rusiya Federasiyası, Azərbaycan, İran və Hindistanın avtomobil yollarının inteqrasiyası üçün nəzərdə tutulmuş Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafıdır. Üstəlik, Hindistan tərəfinin bu layihəyə daxil edilməsinin də geosiyasi alt mətni var, çünki Dehlinin Moskvanın müttəfiqi kimi iştirakı Azərbaycana müəyyən qədər məhdudlaşdırıcı təsir göstərəcək.

Eyni zamanda, Rusiya İranın nəqliyyat axınlarından kənarda qalmasının qarşısını almaq və Qafqaz və Mərkəzi Asiyada bütün logistika sisteminin inkişafında iştirak etmək üçün əlindən gələni edir. Məlum olduğu kimi, bu işdə ən mühüm layihələrdən biri Rəşt (İran) - Astara (İran/Azərbaycan) dəmir yolu xəttinin tikintisidir ki, Rusiya artıq 1,3 milyard avrodan çox vəsait ayırıb. Əgər buna Rusiya Federasiyasının regionda infrastruktur, enerji, ərzaq və digər layihələrdə iştirak etmək istəyini də əlavə etsək, Moskvanın öz yerini o qədər də asanlıqla əldən vermək fikrində olmadığı aydın olar. Düzdür, situasiyanın inkişafı daha çox Azərbaycan hakimiyyətinin nə dərəcədə arxayın olmasından, Türkiyə və Qərb tərəfdaşlarının onlara hansı dəstəyi vəd etməsindən asılı olacaq.

***V.VƏLİYEV***

ANALİTİK

*EKSPERT RƏYLƏRİ*

# "Həkimlik stereotipi və peşə seçimində məhdudiyyətlər"

Gənclərin gələcək həyatında mühüm rol oynayan peşə seçimi təkcə şəxsi maraqlardan və bacarıqlardan deyil, həm də cəmiyyətin onlara ötürdüyü təsəvvürlərdən ciddi şəkildə asılıdır. "Ən yaxşı peşə həkimlikdir" kimi köklü və tez-tez təkrarlanan stereotiplər bir çox hallarda gənclərin düşüncəsinə yeridilərək, onların seçim azadlığını məhdudlaşdırır. Bu kimi yanaşmalar fərdi qabiliyyətlərin nəzərə alınmamasına, nəticədə isə həm şəxs, həm də cəmiyyət üçün qeyri-effektiv nəticələrin yaranmasına səbəb ola bilər. Bəs bu kimi stereotiplərin hökm sürdüyü bir mühitdə gənclər öz potensiallarını necə kəşf edə və doğru peşə seçimi edə bilərlər? SİA mövzu ilə bağlı sosioloq Ağasəlim Həsənov





və sosioloq Üzeyir Şəfiyevin fikirlərini öyrənib.

Həkimlik bir ixtisas olaraq hər zaman aktuallıq kəsb etmişdir. Ona görə ki, insan həyatıyla, eləcə də bir neçə digər canlıların həyatıyla birbaşa bağlı olan bir peşənin istənilən dövrdə aktual olması təbiidir deyə sosioloq qeyd edir: "Yəni həkimlik konkret olaraq insan həyatı və sağlamlığı ilə bağlı olduğuna görə düşünürəm ki, keçmişdə də aktual olub, bu gün də aktuallığını qoruyur və gələcəkdə də qoruyacaq. Gəncləri müşahidə etdikdə görürük ki, həkim kimi işləmək, normal qazanc əldə etmək kimi perspektivlər bu sahəyə marağı artırır. Bu da başa düşüləndir və əslində normaldır, belə də olmalıdır.

Bu baxış yalnız həkimlik ixtisasına aid deyil. Məsələn, hüquqşünaslıq ixtisasına da uzun illərdir maraq böyükdür. Sovet dövründə olduğu kimi, müstəqillik əldə etdikdən sonra da hüquqşünaslıq aktuallığını qoruyub saxladı və bu gün də belədir. İxtisas seçimi zamanı cəmiyyətdə belə bir düşüncə formalaşıb ki, abituriyentlər gələcəkdə həmin ixtisas üzrə işləmək, perspektiv əldə etmək imkanlarını dəyərləndirirlər. Gənclər düşünürlər ki, bu ixtisası oxuyaraq gələcəkdə hüquqşünas və ya həkim kimi iş tapmaq imkanlarım daha geniş olacaq. Bu düşüncə maraq yaradır, zamanla meyil güclənir və beləliklə davam edir.

Təkcə həkimlik deyil, ümumilikdə ixtisaslara yanaşmada artıq yeni bir mərhələ başlanır. IV Sənaye İnqilabının gətirdiyi bir sıra yeniliklər - süni intellekt, robot texnologiyalarının istehsalata tətbiqi və s. - artıq gerçəkdir. Bu proseslər yeni ixtisaslara və peşələrə olan tələbatı artırır. Əsasən informasiya texnologiyaları ilə əlaqəli sahələrdə bu artım daha çox hiss olunur.



Məsələn, Dünya İqtisadi Forumunun hesabatına əsasən, bu gün birinci sinfə gedən şagirdlərin 65%-i gələcəkdə bu gün bizə məlum olmayan peşələrdə çalışacaq. Bu da o deməkdir ki, IV sənaye inqilabı artıq reallıqdır və süni intellektin tətbiqi sürətlənir. Bu texnologiyaların meydana çıxması ilə yeni işçi tələbatı da yaranır.

Süni intellekt texnologiyaları hələlik insan idarəçiliyinə, insan zəkasına möhtacdır. Yəni yeni ixtisaslar yaranacaq, yeni iş yerləri və peşələr formalaşacaq. Hesabata əsasən, gələcəkdə də həkimlik ixtisası öz populyarlığını qoruyacaq. Çünki bu peşə insan sağlamlığı ilə əlaqəlidir. Lakin mümkündür ki, həkimlik sahəsində də süni intellekt texnologiyalarının tətbiqi artsın. Məsələn, analizlərin aparılması və ya xəstənin vəziyyətinin müəyyənləşdirilməsi kimi məsələlərdə bu texnologiyalardan istifadə oluna bilər.

Süni intellekt texnologiyalarına artıq bir çox sahələrdə etibar edilir. Məsələn, bəzi ölkələrdə məhkəmə qərarlarının qəbul edilməsində, istintaq sistemində, hətta idarəetmə şuralarında bu texnologiyalardan istifadə olunur. Doğru qərarların verilməsində süni intellektin dəstəyi artır.

İqtisadi və texnoloji inkişaf nəticəsində yeni bir dünya yaranır, yeni ixtisaslar formalaşır, mövcud ixtisaslar isə yenilənir. IV sənaye inqilabından sonra dünyada bir çox şey dəyişir və bu dəyişikliklər ixtisas-peşə seçiminə də təsir göstərir".

Sosioloq Üzeyir Şəfiyev açıqlamasında əmək bazarında hansı peşəyə ehtiyac varsa, həmin peşənin prioritet sayıldığını deyir: "Əmək bazarı isə statik deyil, daim dəyişən - dinamik bir sahədir. Tutaq ki, bu gün bir peşə prioritetdirsə, 5-10 il sonra bu dəyişə bilər. Süni intellekt, informasiya-kommunikasiya texnologiyaları (İKT), rəqəmsal texnologiyalar kimi sahələrə üstünlük verilir. Tibb sahəsi isə hər zaman aktual olaraq qalır.

Müasir gənclik əmək bazarının çağırışlarını düzgün hiss edir və bu çağırışlara uyğun özlərini hazırlamağa çalışır. Onlar həm ölkə daxilində, həm də xarici ölkələrdə bu istiqamətdə addımlar atırlar. Güman edirəm ki, valideynlər də artıq bu sahədə anlayışlıdırlar və övladlarını əmək bazarının tələblərinə uyğun istiqamətləndirməyə çalışırlar. Əvvəllər daha çox dəbdə olan peşələrə maraq göstərilirdi. Cəmiyyətdə yaxşı görünən, lakin əmək bazarında artıq sıxlıq yaşanan ixtisaslara üz tutulurdu. Halbuki bəzi sahələrdə ciddi şəkildə kadr çatışmazlığı müşahidə olunur və həmin sahələrdə işçi qüvvəsinə ehtiyac var".

***Günel Fərzəliyeva***

# "Yenidənqurma işləri nəticəsində plana düşən evlərin sayı artmaqdadır"

**"Son illər paytaxtda və böyük şəhərlərdə aparılan infrastruktur layihələri, yol genişləndirmə və yenidənqurma işləri nəticəsində plana düşən evlərin sayı artmaqdadır. Bu proses çərçivəsində sakinlər üçün əsas suallardan biri isə plana düşən evlərin dövlət və ya aidiyyəti qurumlar tərəfindən nə qədər qiymətləndirilməsidir. Bu məqamda evin hüquqi statusu-sənədli və ya sənədsiz olması-qiymətləndirmədə əsas meyar hesab olunur". Bu sözləri SİA-ya açıqlamasında Daşınmaz əmlak üzrə ekspert Anar Nəsirov deyib.**




Onun sözlərinə görə, əgər evin mülkiyyət sənədi (kupçası) varsa və rəsmi şəkildə qeydiyyata alınıbsa, həmin ev bazar dəyəri əsasında qiymətləndirilir. Bu zaman qiymətə evin yerləşdiyi ərazi, tikintinin keyfiyyəti, sahəsi, tikinti materialları, əlavə tikililər və digər faktorlar təsir edir. Məsələn, sənədli evlər üçün Bakının mərkəz hissəsində qiymət 1500-2000 AZN/m$^2$ aralığında ola bilər, kənar ərazilərdə isə bu rəqəm 800-1300 AZN/m$^2$ arasında dəyişə bilir. Bəzi hallarda evin tam bazar qiyməti ödənilir, bəzən isə orta bazar göstəricisi əsasında kompensasiya təklif olunur: "Digər tərəfdən, sənədsiz evlər-yəni mülkiyyət hüququnu təsdiq edən heç bir rəsmi sənədi olmayan tikililər - çox zaman daha aşağı qiymətlərlə dəyərləndirilir. Belə hallarda qiymət evin sahəsi və yerləşdiyi torpaqla bağlı mövcud normativlərə əsasən hesablanır. Çox vaxt bu cür evlərə torpağın normativ qiyməti və tikilinin tikinti materiallarına əsaslanan qiymət təklif edilir. Nəticədə sənədsiz evlərin kompensasiya məbləği sənədli evlərə nisbətən 30-50% aşağı ola bilər. Məsələn, sənədsiz bir ev üçün təklif edilən məbləğ bəzən 400-600 AZN/m$^2$ civarında olur. Bu sahədə müəyyən yumşalmalar müşahidə olunsa da, sənədsiz ev sahibləri tez-tez qiymətləndirmədən narazı qalır. Bunun əsas səbəbi isə onların evlərinin bazar dəyərində deyil, daha çox texniki və normativ göstəricilərə əsasən qiymətləndirilməsidir. Eyni zamanda, bəzi hallarda evin sənədsiz olması torpağın da hüquqi statusunu qeyri-müəyyən edir ki, bu da ümumi kompensasiya məbləğini azaldır. Ən optimal həll yollarından biri evlərin vəziyyətindən asılı olmayaraq vahid və şəffaf qiymətləndirmə mexanizminin yaradılmasıdır. Belə olduqda vətəndaşlar da öz hüquqlarını daha aydın şəkildə biləcək və kompensasiya ilə bağlı narazılıqlar minimuma enəcək. Mülkiyyətlərində olan evlərin hüquqi statusunu əvvəlcədən qaydaya salsınlar. Çünki gələcəkdə hər hansı plana düşmə və ya dövlət ehtiyacları üçün alınma halında bu, həm hüquqi, həm də maliyyə baxımından onların maraqlarını daha yaxşı qoruyacaq".

***Ziya Hikmətoğlu***






# "Ağ ölüm" kabusu

Dünyanı narahat edən, bəşər övladının bəlasına çevrilən, bir çox gənclərin aludə olduğu narkomaniya bu gün demək olar ki, öz sferasını genişləndirib. Cəmiyyət üçün çox qorxulu, təhlükəli olan narkomaniya insan sağlamlığına bərpaedilməz ziyan vurmaqla yanaşı, cəmiyyətdə neqativ halların yaranmasına da səbəb olur. Çünki narkomaniya cinayətkarlığa, zorakılığa və korrupsiyaya rəvac verir, immunçatışmazlığı sindromunun sürətlə artmasına təkan olur. Bunun təsirindən ailələri dağıdılır, ömürlər yarımçıq qalır. Əlbəttə ki, cəmiyyətin yarasına çevrilən "ağ ölüm" sosial partlayışlara səbəb olub. Narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq cəmiyyətin intellektual potensialının aşağı düşməsinə, genefondun pisləşməsinə, bir çox mənfi hallara gətirib çıxarır. Bu, həm də və ən əsası, cinayətkarlığın artmasına səbəbdir. Narkotiklərin qanunsuz dövriyyəsi terrorizmin maliyyə mənbəyi olmaqla beynəlxalq təhlükəsizliyə ən ciddi təhdidlərdən biridir.

Azərbaycanda narkomaniyaya qarşı mübarizə sahəsində dövlət tərəfindən kifayət qədər işlər görülüb. Bu sahədə fəaliyyət, ardıcıl olaraq, davam etdirilir və daha da genişləndirilir.

Belə ki, "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 26 avqust tarixli Fərmanı narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində dövlət siyasətinin həyata keçirilməsini təmin etməkdə mühüm bir Sənəd oldu. Daha sonra, Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli Fərmanı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqramı", 2007-ci il 28 iyun tarixli Sərəncamla "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqramı (2007-2012-ci illər üçün)", 2013-cü il 24 iyun tarixli Sərəncam ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmiş və uğurla həyata keçirilmişdir. Dövlət orqanlarının və ictimai birliklərin fəaliyyətini əlaqələndirməkdən ibarət olan Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin 22 iyul 2019-cu il tarixli Sərəncamı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi görülən işlərin davamı oldu.

## GƏNCLƏŞƏN NARKOMANİYA

Dövlət Proqramından irəli gələrək respublikada narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, antinarkotik təbliğatı, müasir informasiya texnologiyalarının imkanlarından istifadə olunmaqla, narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması istiqamətində tədbirlər həyata keçirilib və bu davam etməkdədir. Eyni zamanda, narkomanlığa düçar olmuş şəxslərin müalicəsi və reabilitasiyası istiqamətində müasir texnologiyaların və yeni üsullar tətbiq olunur. Son illər respublikamızda narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, digər bihuşedici maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə xeyli güclənmiş, bu sahəyə cavabdeh olan dövlət orqanları ilə yanaşı, ictimai təşkilatların, qeyri-hökumət təşkilatlarının da fəallığı nəzərə çarpacaq dərəcədə artmışdır. Bu gün narkomaniyanın gəncləşməsi prosesi gedir. Narkotik maddə alverçiləri uşaqlardan sui-istifadə edərək, onlara həmin məhsulları təklif edirlər. Beləliklə, uşaqlarda aludəçilik yaranır.






## NARKOMANLIQ DİAQNOZU İLƏ QEYDİYYATDA OLANLARIN ARTAN SAYI

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin məlumatına əsasən, 2020-ci ilin 31 dekabr tarixində ölkə üzrə narkomanlıq diaqnozu ilə qeydiyyatda olanların sayı 33 788 nəfər təşkil edib. Həmin şəxslərdən 28 318 nəfəri dispanser, 5 470 nəfəri profilaktik qeydiyyatda olanlar olub. Bu şəxslərdən 618 nəfəri qadın olub. 23 537 nəfər opioid qrupuna aid narkotik istifadəçiləri, 10 251 nəfəri kannabinoid qrupuna aid narkotik istifadəçiləri olub. 2020-ci ildə müvafiq diaqnozla 2 723 nəfər qeydiyyata götürülüb, 1 856 nəfər isə qeydiyyatdan çıxarılıb.

2021-ci ildə isə respublika üzrə narkomanlıq diaqnozu ilə qeydiyyatda olanların sayı 34 602 nəfər təşkil edib. Həmin şəxslərin 27 106 nəfəri dispanserdə, 7 496 nəfəri profilaktik qeydiyyatda olanlardır. Onlardan 556 nəfəri qadın olub. 24 850 nəfər opioid qrupuna aid narkotik istifadəçiləri, 9 752 nəfər kannabinoid qrupuna aid narkotik istifadəçiləri olub. 2021-ci ildə müvafiq diaqnozla 5 603 nəfər qeydiyyata götürülüb, 4 789 nəfər isə qeydiyyatdan çıxarılıb.

Səhiyyə Nazirliyi tərəfindən qəbul olunmuş yeni statistik hesabat formasına uyğun təqdim edilmiş məlumata əsasən, 2024-cü il 31 dekabr tarixində respublika üzrə narkomaniya, narkotik maddələrin qəbulundan yaranan psixi və davranış pozuntuları ilə əlaqədar dispanser nəzarətində olanların sayı 40 490 nəfər təşkil etmişdir. Onlardan 20 182 nəfəri opioidlərin, 8 611 nəfəri kannabioidlərin, 11 697 nəfəri isə bir neçə narkotik maddəni eyni zamanda qəbul etməsi nəticəsində psixikası və davranışı pozulmuş şəxslərdir. Bunlarda 1005 nəfəri isə qadındır. Beləliklə, son 5 ilin rəsmi narkotik istifadəçisi statistikası ortadadır. Bir daha xatırladaq ki, 2020-ci ildə ölkə üzrə rəsmi qeydiyyatda olan narkotik istifadəçilərinin sayı 33 788 nəfər, 2021-ci ildə 34 602 nəfər, 2022-ci ildə 35 097 nəfər, 2023-cü ildə 36 659 nəfər, 2024-cü ildə isə 40 490 nəfər təşkil edib.

## NARKOMANİYA CƏMİYYƏTİN QORXUNC KABUSUDUR

Bildiyimiz kimi, narkotik maddələr orqanizmə daxil olduqdan sonra psixoloji, fiziki dəyişikliklərə səbəb ola bilən və asılılıq yarada bilən kimyəvi maddələrdir. Mütəxəssislərin qənaətinə görə, narkotik maddə asılılığı, saxta xoşbəxtlik hissi verən maddənin müəyyən təsiri əldə etmək üçün lazım olan istifadəsi müddətində ortaya çıxan, fiziki, psixi və sosial problemlərə baxmayaraq, maddə istifadəsinin davam etdirilməsi və bu istəyin dayandırıla bilmədiyi bir vəziyyətdir. Narkotik beyin funksiyalarına və bütün orqanizmə təsir edir. Zamanla zehni və davranış problemləri yaradaraq, insanın yaxın münasibətlərinə, ictimai və peşə həyatına mənfi təsir göstərir.

Əlbəttə ki, narkomaniya yalnız cəmiyyətin narkotik asılılıqdan əziyyət çəkən fərdinin deyil, ümumilikdə cəmiyyətin bir problemidir. Narkotik istifadəçisi birbaşa və ya dolayı yolla cəmiyyətin bütün üzvlərinə təsir edir. Mütəxəssislərin qənaətinə görə, narkotizmlə mübarizə uzunmüddətli, çoxşaxəli, geniş maliyyə vəsaiti tələb edən dinamik bir prosesdir. Problemin ictimai təhlükəliliyi isə ondan ibarətdir ki, bu cinayət həmişə gizli şəraitdə baş verir, nəzarətdən kənarda qalır və durmadan artır. Narkomanlığın yayılmasının qarşısını almaq üçün maarifləndirmə tədbirlərinin təşkili davamlı olmalıdır. Qorxunc bu kabus gənclərin başı üzərində dolaşmaqdadır. Gənc və yeniyetmələrin sağlam böyüməsi təkcə dövlətin üzərinə düşən məsuliyyət deyil, bu işdə hər kəs bacardığını etməlidir. Cəmiyyətin hər bir vətəndaşının bu istiqamətdə fəallığı mütləqdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycana qarşı hibrid təhdidlərin sifarişçisi erməni lobbisidir

## Təxribat xarakterli dezinformasiyalar daha çox "Echo of Baku", "Azeri Horizon", "Xəbər24", "Merry you", "Azerbaijan Pulse", "Az insight" vasitəsilə yayımlanır



Fakt ondan ibarətdir ki, Azərbaycan 30 il dünya birliyindən BMT Təhlükəsizlik Şurasının Ermənistan tərəfindən işğal edilmiş ərazilərinin boşaldılması barədə qərarının icrasını gözləyib. Lakin Ermənistan beynəlxalq birliyə qarşı çıxaraq BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməkdən imtina edib. Bu zaman özlərini dünyanın aparıcı dövlətləri kimi təqdim edən güc mərkəzləri də Ermənistanın özbaşnalığına seyirçi qalıb. Bununla bir növ ərazilərin ilhaq olunması, insanların öz doğma yurd-yuvasından qovulması məsələsində Ermənistanla eyni maraqları bölüşdüklərini nümayiş etdiriblər. Azərbaycan beynəlxalq hüquq norma və prinsiplərinə uyğun olaraq təkbaşına BMT Təhlükəsizlik Şurasının qərarlarını icra etmək üçün əməliyyatlara başlayıb və qısa müddətdə uğurlu hərbi, siyasi, diplomatik qələbələr əldə edib. Buna görə yüksək beynəlxalq tribunalardan, ölkələrinin parlamentlərinin kürsülərindən Azərbnaycana təşəkkürlər etmək əvəzinə, qərəzli mövqe sərgiləyirlər.

Bəzi qüvvələr Azərbaycanın dünya siyasətində rolunun artmasından narahat olduqlarından müxtəlif anormal vasitələrlə ölkəmizə problemlər yaratmağa çalışırlar. Xüsusilə də ABŞ, İsveçrə, Niderland, Fransa, Almaniya kimi dövlətlərdə kök salan qaranlıq dairələr Azərbaycana qarşı qarayaxma kampaniyası həyata keçirməklə açıq formada məkrli niyyətlərini nümayiş etdirirlər. Təbii ki, bu məsələdə erməni lobbisinin sifarişləri də rol oynayır. Bu azmış kimi qaranlıq məkrli dairələr əllərinin altında olan təxribat maşınları vasitəsi ilə ölkəmizə qarşı "informasiya müharibəsi" təşkil edirlər. Üzdəniraq xarici mətbu orqanlar demək olar ki, hər gün Azərbaycana qarşı şər və böhtan xarakterli məlumatlar yayırlar.

### Milli Məclisin xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyası ölkəmizə qarşı aparılan informasiya kampaniyasına etiraz açıqlaması yayıb

Araşdırarkən məlum olur ki, dezinformasiya xarakterli informasiyaların əksər hissəsi erməni lobbisinin göstərişlərinə söykənir. Çünki eyni qərəzli və böhtan xarakterli məlumatlar Ermənistandakı terrorçu qruplara məxsus saytlar, TV-lər tərəfindən də yayımlanır. Haqlı olaraq Azərbaycan ictimaiyyəti, müvafiq dövlət qurumları Azərbaycana qarşı qərəzli təhdid kampaniyası təşkil edən və yayan xarici təşkilatları, KİV-ləri sərt şəkildə tənqid edirlər. Bu günlər Azərbaycan Respublikasının Milli Məclisinin xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyası ölkəmizə qarşı aparılan informasiya kampaniyasına etiraz bildirilən sərt açıqlama yayıb. Açıqlamada qeyd olunur ki, Azərbaycan Respublikası Milli Məclisinin xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyası qonşu dövlətlərdən birinin ərazisindən ölkəmizə qarşı aparılan qeyri-dost fəaliyyətlərin sosial media və sosial şəbəkə platforması olan "Facebook" vasitəsilə hələ də davam etdiyini müşahidə edir: "Bir sıra səhifələr ("Echo of Baku", "Azeri Horizon", "Xəbər24", "Merry you", "Azerbaijan Pulse", "Az insight" və s.) vasitəsilə adıçəkilən platforma üzərindən Azərbaycan Respublikasının informasiya məkanına hədəfli müdaxilə cəhdləri edilərək ölkəmizdə ictimai fikri çaşdırmağa, dövlətin apardığı uğurlu daxili və xarici siyasətə kölgə salmağa çalışılır. Geosiyasi manipulyasiya xarakterli məlumatlar Azərbaycan dilində "Facebook"da paylaşıldıqdan sonra istifadəçilərdən "Telegra.ph" kimi platformalara keçid etmələri istənilir ki, bu da öz növbəsində bir sıra istifadəçi məlumatlarının (IP ünvan, istifadə olunan cihaz və s.) ələ keçirilməsinə səbəb ola bilər. Vətəndaşlarımızın nəzərinə çatdırırıq ki, bu cür informasiya əməliyyatlarına qarşı müvafiq dövlət qurumları ilə əlaqələndirilmiş şəkildə daim lazımi tədbirlər görülür. Eyni zamanda qeyd etməliyik ki, "Meta" şirkətinə edilən müraciətlər nəticəsində Azərbaycana qarşı fəaliyyət göstərən həmin səhifələrin bağlanmasına nail olunmuşdur. Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiya vətəndaşlarımızı diqqətli olmağa, bu cür məlumatlara inanmamağa çağırır, ölkəmizə qarşı istifadə edilən hibrid təhdid metodları və alətləri ilə bağlı müntəzəm olaraq ictimaiyyəti məlumatlandırır".

### Rusiya KİV-ləri riyakarlığın simvoluna çevrilirlər

Qərbin və ABŞ-ın qaranlıq dairələrinin Ukrayna məsələsinə görə Rusiya ilə düşmən olsalar da, Azərbaycana və Türkiyəyə qarşı münasibətdə eyni maraqları bölüşürlər. Qərbin siçovul ünsürləri Qarabağda Azərbaycanın üçrəngli bayrağının dalğalanmasını həzm edə bimədikləri kimi Rusiyanın hakim zümrəsi və təxribat maşınları da mövcud reallığı qəbul etmək istəmirlər. Çalışırlar ki, Azərbaycana qarşı qərəzli yanaşmalarda Qərbin müəyyən dairələri ilə eyni mövqedən çıxış etsinlər və istəklərinə də nail olurlar. Rusiyanın ipləri Kremlin Medinski kimi ermənipərəstlərin əlində olan KİV-ləri də Azərbaycana qarşı hər cür çirkin kampaniyada fəal iştirak edirlər. Salavyov, Simyon kimi dələduz məxluqlar dallarını müəyyən yerlərə söykəyənlər ardıcıl olaraq ölkəmizlə bağlı şər və böhtanlar səsləndirirlər. Bu günlər Rusiyanın TASS agentliyində Azərbaycana qarşı qərəzli məlumatın yayılması bu ölkə KİV-lərin çox iyrənc vasitələrdən istifadə etdiklərini göstərir. Xankəndidə ermənəisilli rusiyalı rəssam İvan (Ovanes) Ayvazovskinin abidəsinin söyükləməsini bu ünsürlər böyük hay-küylə qarşılayıblar. Niyə səbəb? Axı bu heykəlcik separatçıların Qarabağda kök saldıqları zaman qanunsuz olaraq hazırlayıblar. Yəni Ayvazovskinin büstü 2021-ci ilin dekabrında separatçı rejimin nümayəndələri və Rusiya sülhməramlılarının təşəbbüsü ilə "Rusiya Şöhrət Xiyabanı" adlı qanunsuz layihə çərçivəsində Xankəndində quraşdırılıb. Azərbaycanın suveren ərazisində müvəqqəti yerləşdirilmiş sülhməramlılar mandatına zidd olan addımlar atır, "Rusiya Şöhrət Xiyabanı" inşa edir, Saxarovun heykəlini uzaq Moskvadan başına ip salıb gətirib, Qarabağda onun adını daşıyan məktəbin həyətində ucaldırlar. Bu rüsvayçılıq azmış kimi Qarabağda Ayvazovskinin heykəlini quraşdırırlar. Lakin bu rüsavayçı halları həyata keçirərkən anlamırdılar ki, günün birində Azərbaycan öz torpaqlarını işğaldan azad edəcək və bu zaman heykəlcikləri, eləcə də digər zir-zibili süpürüb, zibilliyə atacaq. Belə də oldu və hesab edirəm ki, hər bir suveren ölkə Azərbaycan kimi addım atar. Rusiyanın TASS da daxil olmaqla, RİA Novosti, "Kommersant", RBK, "İzvestiya" "Gazeta.ru" kimi KİV-lərdə böhtanlara yol verib, Azərbaycanın beynəlxalq hüquqla tanınan ərazisi ilə bağlı separatçı mövqe sərgiləyiblər. Məlumatların tirajlanması zamanı Xankəndi şəhəri "Stepanakert" adlandırılıb, eləcə də Azərbaycanın artıq hüquqi və siyasi baxımdan ləğv edilmiş "Dağlıq Qarabağ" adlı inzibati ərazi vahidinə istinadlar yer alıb. Bu cür terminologiya təkcə jurnalistik etikaya deyil, eyni zamanda beynəlxalq hüquqa və Moskva Bəyannaməsi kimi ikitərəfli razılaşmalara ziddir. Təbii ki, bu kimi təxribatların arxasında Kremlin qaranlıq dairələri dayanır. Hansı ki, hər vəchlə Azərbaycanın dünya siyasətin də mövqeyinin möhkəmlənməsinə, uğurlarının artmasına qarşıdırlar. Qarabağ kimi tarixi ərazilərimizin işğaldan azad edilməsindən narahatçılıq keçirirlər. Ona görə də, hər cür iyrənc vasitə və üsullardan istifadə etməklə ölkəmizə öz dayaz düşüncələri ilə zərər verdiklərini düşünürlər. Ancaq anlamırlar ki, Azərbaycan artıq ötən əsrin 90-cı illərindəki Azərbaycan deyil, ölkəmiz bu gün dünyanın ən güclü və qüdrətli dövlətlərindəndir. Heç bir qüvvə Azərbaycanla təhdid və təzyiq dillə danışa bilməz. Bu vasitədən istifadə edənlərin aqibəti 44 günlük Vətən Müharibəsi dövründə Ermənistanın Azərbaycanın "Dəmir yumruğu" qarşısında diz şöküb, ağ bayraq qaldırması ilə bütün dünyaya nümayiş etdirildi.

### Azərbaycan ədalətin carçısı olaraq tanınır və qəbul edilir

Beynəlxalq normalara görə, hər hansı dövlət başqa bir suveren dövlətin iç məsələlərini müzakirə edə və hər hansı bir qərarla çıxış edə bilməz. Lakin Qərbin, ABŞ-ın, eləcə də Rusiyanın bəzi ünsürləri öz daxili ağır problemləri unudub Azərbaycanla bağlı məsələrəri müxtəlif kabinetlərdə, salonlarda müzakirə edirlər. Fransa, ABŞ, Niderland, Almaniya kimi şər yuvaları özləri Azərbaycana qarşı "Səlib" yürüşlərində bacarıqsız olduqlarını anlayaraq sıralarına digər dövlətləri də qoşmağa çalışırlar. İsveçrə Milli Şurasının (parlamentin aşağı palatası) Xarici Əlaqələr Komitəsinin Fransanın təzyiqi və təsiri ilə Azərbaycanla bağlı separatçı məsələləri müzakirə edib, qərar qəbul etməsi deyilənlərə misal ola bilər. Belə ki, İsveçrə Milli Şurasının (parlamentin aşağı palatası) Xarici Əlaqələr Komitəsinin təqdim etdiyi təklifdə Federal Şura Qarabağdan rədd olub gedən ermənilərin məsələsi ilə bağlı beynəlxalq sülh forumunun təşkilinə çağırmışdır. Eyni düşük və yersiz fikirlərlə Niderlandın və Belçikanın da paralament üzvləri çıxış etmişdilər. Halbuki bu məxluqlar anlamırlar ki, tarxin təkərini geri döndərmək mümkün olmadığı kimi Qarabağdan itilib getmiş hayların yenidən Azərbaycan ərazisinə ayaq basmaları mümkünsüzdür.

ABŞ Konqresi və ya Senatı Ermənistanın dövlət istəklərinə erməni lobbisinin maraqlarına uyğun olaraq dəfələrlə Azərbaycanla bağlı anormal dinləmələr keçirib. Dinləmələr Ermənistandakı revanşist qüvvələri ruhlandıran və onları və Cənubi Qafqaza sabitliyi pozmağa xidmət edən qərarların qəbulu ilə müşahidə olunur. Hətta ara-sıra anormal qərarlar da qəbul edirlər. 2023-cü il noyabrın 15-də ABŞ Konqresinin Nümayəndələr Palatasında "Dağlıq Qarabağın gələcəyi" mövzusunda keçirilmiş dinləmələr bunun daha bir nümunəsi sayıla bilər. Söz yox ki, dinləmələrin keçirilməsinə ən çox dəstək verən ABŞ-dakı erməni lobbisi olub. Bu da onu deməyə əsas verir ki, dünyanın aparıcı dövləti kimi özünü təqdim etməyə çalışan ABŞ, əslində, Kardaşyan kimi fahişə modellərin əlində alət olub. Nəzərə almaq lazımdır ki, qondarma tədbirdən öncə tədbirin təşkilatçısı Konqresin Avropa məsələləri üzrə alt komitəsinin sədri Tomas Kin Ermənistanın ABŞ-dakı səfiri Lilit Makuns ilə görüşüb. Görüşün 5 saata qədər davam etməsi onu təsdiq edir ki, tərəflər Azərbaycana qarşı necə şər və böhtanlar səsləndirmək, iddialar və ittihamlar irəli sürmək məsələlərini geniş və əhatə şəkildə müzakirə edib, razılaşma əldə ediblər. Dinləmələr gözlənildiyi kimi erməni lobbisinin tələblərinə uyğun keçirilib. Tomas Kin ermənilərin Qarabağdan guya etnik təmizləmə yolu ilə çıxarılması məsələsinə etiraz edərək deyib ki, Birləşmiş Millətlər Təşkilatının Komissiyası və Beynəlxalq Qırmızı Xaç Komissiyasının Ermənistana köç edən Qarabağ ermənləri ilə bağlı xüsusi arayışı var. Orada çox aydın şəkildə yazılıb ki, onlar Qarabağdan etnik təmizləmə ilə məcburi şəkildə köçürülməyib. Özləri könüllü şəkildə köçüb gediblər. Təbiidir ki, bütün bunları Tomas Kin də bilir. Sadəcə, Azərbaycanın Qarabağda əldə etdiyi qələbəsinə, insanlarımızın öz yurd-yuvalarına qayıdışına qısqanclıqla yanaşmalar nümayiş etdirilib. Bu anormal müzakirələrdən sonra ermənipərəst konqresmenlər Azərbaycan yardımların azaldılacağı barədə çıxışlar da ediblər. Ancaq bunlar anlamırlar ki, zatən Amerika Birləşmiş Ştatları Azərbaycana Ermənistandan qat-qat az yardımlar göstərir. Bununla yanaşı qeyd olunmalıdır ki, ölkəmizin hər hansı kənar yardımlara ehtiyacı yoxdur. Bəli, bu kimi neqativ hallar Bayden hakimiyyəti dönəminin arzuolunmaz qüsurları idi. D.Trampın hakimiyyəti yığılıb qalan problemlərin həlli üçün Azərbaycanla geniş və əhatəli əməkdaşlıq əlaqələri yaradıb. Ümid edilir ki, problemlər aradan qaldırılacaq və ABŞ- Azərbaycan münasibətləri səmimi dostluq əlaqələrinə çevriləcək. D.Trampın təşəbbüsü ilə Azərbaycanla Ermənistan arasında sülhün əldə olunması üçün Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüşün təşkil edilməsi müsbət və uğurlu nəticə olaraq qiymətləndirilir. Bu faktın özü onu təsdiq edir ki, Azərbaycanla isti münasibətlər qurmağa çalışanlara Azərbaycan da dost əli uzadır. Başqa cür hərəkət etmək və addım atmaq, yalnız qarşı tərəfə uğursuzluq gətirə bilər.

***İLHAM ƏLİYEV***

# Bir şəhidin həyat hekayəsi



Tariximizə Vətən müharibəsi kimi adı həkk olunan savaşda od-alov püskürən cəbhələrində ölümlə üz-üzə dayanan, qəhrəmanlıq göstərən vətənin mərd oğulları - Azərbaycan ordusu tariximizin şanlı səhifəsini yazdı. Zəfər tariximiz yaşandı. 44 günlük müharibədə od-alov içində vuruşan oğullarımız böyük qürur və dəyanət, şücaət və əzmkarlıq nümayiş etdirdilər. Əlbəttə ki, müharibə böyük itki və təlafatdır. Xalqımız savaşı - bu tarixi yaşadı. Şəhidlərimiz də oldu, qazilərimiz də. Təbii ki, onları vətənə layiqli övlad kimi yetişdirən analardır. Dünyanın ən uca varlığı, müqqədəs, ülvi insanı olan ananın adının vətən ilə birgə çəkilməsi bu məfhumun həqiqətən də yaşadığımız həyatda müqayisə olunmaz məfhum olduğunu təsdiqləyir. Ana laylası ilə beşikdən boy atır, duaları ilə dünyamıza qədəm qoyuruq. Təmiz arzuların, müqəddəs hicslərin, uca arzuların ünvanı olan laylaların ilk səsindən daxili dünyamıza böyük duyğular, vətən, torpaq sevgisi hopur. "Göylər gurlamasın, sellər axmasın, küləklər əsməsin, şimşək çaxmasın, ana körpəsinə süd verən zaman". Bəli, anaya verilən dəyərdir, qiymətdir bu ifadələr. Kimsə anaya toxunması, səsi ilə ananı dünyasından ayırmasın.



Gələcəyin vətənin keşiində duran müsəlləh əsgərə beşik başından bu laylalar vasitəsi ilə vətəni qorumaq kimi müqəddəs bir hiss hopur. Çox keçmir ki, hər bir övlad ana borcunu verməyə, onun keşiyində durmağa çalışır. Hər ötən gündə saçına dən düşən analarımızın ağaran saçına qara tellər əkmək, onun üzünə salınan tale qırışlarına hamar yol salmaq üçün övlad düşünür. Bu yerda şair Məmməd Arazın misraları yada düşür: "Hərdən inanmıram ölüm haqq ola. Ana dəfn oluna, gözəl qocala".

Bir ananın duyğulu dünyası ilə böyüyən övladları bir gün Anasını, ana diyarını, ana Vətənini qorumaq üçün silaha sarılaraq odun-alovun içinə atılanda onun ən uca varlığının Anasının şəhid anası olaraq dünyanın ən yüksəkdə duran adının daşıyıcısı olacağını düşünmürdü. Həsrətlə yollara boylanan, yol gözləyən ananın qanı ilə torpaq suvarmış oğlunun bir gün üçrəgli bayrağa bükülmüş cənazəsinə qucaq açması bir ana böyüklüyü, bir ana qəhrəmanlığıdır. "Ana səbri böyükdür", - deyirlər. Onun sarı siminə toxunsaq, buradan onun daxili dünyasında süzülən nisgili, kədəri və təzadlı dünyada sevinci aşıb-daşan bir bulaq kimi ətrafı bürüyər.

## SƏN VƏTƏNƏ ƏMANƏTSƏN, OĞUL!

Min bir əziyyətlə, gecəsini gündüzünə qatan analarımız vətənə oğul, düşmənə çəpər böyüdür. Gözünü qırpmadan belə, oğul, Vətən dardadır, sən vətənə əmanətsən - deyir, analar. Bu Azərbaycan anasının dilini ifadəsidir. Azərbaycan anası belə böyüklüyə sahibdir. Fərarilər böyütmür, ocağında vətənə oğul böyüdür. Əlbəttə ki, qəddi-qamətin hər zaman məğrur tutan və övladlarını vətənpərvər ruhda böyüdən analarımızın həyat hekayəsi bir örnəkdir, nümunədir.

Orda bir evimiz bizlərə həsrət,
Yurddan didərginik, qonağıq, - dedin.
Yönümüz dağlara, düzlərə həsrət,
Getməsək ölərik, qınağıq, - dedin.

Bəli, minlərlə analarımız bədiiləşmiş bir portretindən nəzmə çəkilən bu misralarda onların siması görünür. Yurd yerinə həsrət qalmış analar, ata-babalarının məzarını ziyarət etməyə həsrət analar var. Bu analar vətənə Mübarizləri, Poladları, İlqarları daha kimləri bəxş etmədi. Adları şəhidlik zirvəsində ucalan mərd, igid oğullarımız adlarını əməlləri ilə təsdiqlədilər. MÜBARİZ OLAN, POLAD İRADƏLİ, VƏTƏNİNƏ İLQARLI OĞULLAR tariximizə ZƏFƏR yazdılar. Minlərlə oğullarımızın vətənin səsinə səs verməsi bu gün vətən həsrətində olan anaların öz yurd-yuvaların dönməsinə səbəb, 30 ilə qədər qubar bağlayan dərdlərə məlhəm oldular. Bu gün analar öz torpaqlarına yol alır və bu yolun mənzilinə.

## BİR İNSAN ÖMRÜNÜN TƏRCÜMEYİ-HALINA YAZILACAQ VƏRƏQLƏRİN 34 İLLİK TARİXİ

Bu gün şəhid oğullarımızın biri haqqında söz açacağıq. Avqustun isti bir günündə dünyaya gələn Amil Hüseynov. Bir kənd, bir mahalda dünya göz açan Amili bu gün bütün Azərbaycan tanıyır. 1986-cı ildə dünyaya göz açan Amilin sən demə, 34 illik bir yolu var imiş. Bir insan ömrünün tərcümeyi-halına yazılacaq vərəqlərin 34 illik tarixini yaza bildi. Qalan illərinə canını fəda edən şəhidimiz sabahın, gələcəyin dastanında öz adını həkk edib ki, onun haqqında yazılacaq hər bir söz bu ömür yolunun yarımçıq qalmadığından xəbər verəcəkdir. Füzulinin Əhmədalılar kəndində anadan olan Amil Rasim oğlu Hüseynovun hər zaman ürəyi Vətən sevgisi ilə döyünərək uşaq yaşlarından hərbçi olmaq istəyib. Məktəbdə oxuduğu müddətdə Amil idmanın karate növü ilə məşğul olub. Respublikada və xaricdə keçirilən yarışlarda iştirak edib və yüksək nailiyyətlər qazanıb, respublika çempionu olub. Gürcüstanda iştirak etdiyi beynəlxalq yarışda 1-ci yerə çıxıb. Amilin hərbi xidmətə olan marağı, Vətənə sevgisi onu öz arzusunun ardınca aparıb. 2004-2006-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2010-cu ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi. Kəşfiyyatçımız 9 il vətənə misilsiz xidmət göstərib. 2010-cu ildən Azərbaycan Respublikasının Daxili Qoşunlarında xidmətə başlayıb. Daha sonra Milli Ordumuzun sıralarında kəşfiyyatçı kimi fəaliyyətini davam etdirib. 2013-cü ildə Türkiyədə kəşfiyyatçı təlim kursu keçib.



Vətən müharibəsinin iştirakçısı olan Amil Hüseynov Füzuli və Xocavənd uğrunda gedən döyüşlərdə xüsusi şücaəti ilə seçilib. Vətən Müharibəsi zamanı Füzuli istiqamətində gedən ən ağır döyüşlərdə böyük şücaət və igidlik göstərib. Amil Hüseynov oktyabrın 10-da Füzulidə şəhid olub. Füzuli rayonunun Əhmədalılar kəndində dəfn edilib.

Şəhid Amil Hüseynov ölümündən sonra Prezident İlham Əliyev tərəfindən "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edilib. Şəhidin atası Rasim Hüseynov neçə-neçə şəhid atası kimi başını dik tutdu. Oğlu Zəfərimizin yazılmasında rolu olan oğullardandır. "Şükür ki, torpaqlarımız azad olundu. Şəhidlərin qanı yerdə qalmadı" - dedi vüqarlı ata. Vətən üçün bundan fəxarətli nə ola bilər ki?!

## "ONDAN MƏNƏ TƏK XATİRƏ İSƏ UĞRUNDA CANINDAN KEÇDİYİ BAYRAQDIR"

Təzəcə ailə həyatı qurmuş Amilin həyat yoldaşına ona Vətənin rəmzi olan üçrəngli bayraq qalıb. Həyat yoldaşı Xalisə Məmmədova verdiyi müsahibələrin birində deyir: "Bizim ailə həyatımız çox qısa çəkdi. Yenicə ailə qurmuşduq. Ancaq mən fəxr edirəm ki, bu cür şərəfli yolda şəhid olmuş insanın həyat yoldaşıyam. Amil həqiqətən fəxr ediləsi bir həyat yoldaşı, insan idi. Bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Düzdür, ondan mənə bir nişanə qalmasa da, tək təsəllim onun məqamıdır. Ondan mənə tək xatirə isə uğrunda canından keçdiyi bayraqdır".

Bu gün onun xatirəsi xalqın qəlbində yaşayır. Dövlətimiz və xalqımız şəhidin adını uca tutur. Şərəfli ömür yolu ilə Zəfər dastanımızı yazanlardan olan Amil neçə-neçə yetişən gəncimizə həyat yolu, məslək, əqidəsi ilə bir məktəbdir. Allah rəhmət eləsin!

***Nəzakət ƏLƏDDİNQIZI***

## Evdə hazırlanan kompot, yoxsa marketdə satılan: üstünlük hansına verilməlidir?

"Ev kompotları həm sağlamlıq, həm də mədəniyyət baxımından dəyərli seçimdir". Bu fikirləri qida üzrə ekspert Seymur Qafarov SİA-ya açıqlamasında bildirib. Onun sözlərinə görə, ev şəraitində hazırlanmış kompotlar sağlam qidalanma baxımından bir çox üstünlüklərə malikdir və fabrik istehsalı içkilərlə müqayisədə daha təbii və faydalıdır: "Evdə hazırlanmış kompotlarda şəkər miqdarı, meyvə növü və əlavə maddələr tam nəzarət altında olur. Bu tip kompotlarda konservant və süni qatqı maddələri olmur".

Ekspert bildirib ki, bu içkilər eyni zamanda vitamin və antioksidant baxımından da zəngindir: "Mövsümə uyğun meyvələrlə hazırlanmış kompotlar C vitamini, po-



lifenollar və digər faydalı maddələrlə zəngin olur. Mədə üçün yüngül və rahat həzm olunan içkilərdir, xüsusilə isti havalarda susuzluğu azaldır".

Seymur Qafarovun fikrincə, kompotun hazırlanmasında meyvənin təbii şirinliyindən istifadə edildikdə əlavə şəkərə belə ehtiyac qalmır: "Çox vaxt meyvənin təbii şirinliyinə görə hazırlayarkən əlavə şəkərə ehtiyac olmur. Bu da daha sağlam və balanslı qidalanma üçün vacibdir". O əlavə edib ki, ev kompotları təkcə sağlamlıq baxımından deyil, həm də mədəni və ailəvi dəyərlərin qorunması baxımından mühüm əhəmiyyətə malikdir: "Ev kompotları Azərbaycan mətbəxində ailəvi birlik və qonaqpərvərlik simvolu kimi tanınır. Bu içkilər mədəni dəyərlərimizin inkişafında da rol oynayır".

Qida eksperti bildirib ki, bəzi meyvələr kompot hazırlanması üçün daha uyğundur: "Alma və armud yumşaq dadı və balanslı turşuluğuna görə, ərik və şaftalı beta-karoten və liflə zənginliyinə görə, gavalı və albalı isə antioksidant tərkibi və təbii rəng vericiliyi baxımından xüsusilə uyğundur. Quru meyvələr isə qış aylarında enerji və dəmir mənbəyidir". Seymur Qafarov ev və zavod şəraitində kompot hazırlanarkən qida təhlükəsizliyi standartlarına əməl olunmasının vacibliyini də vurğulayıb: "Fabrik və ya zavod istehsalı olan kompotlarda 'Təhlükə təhlili və kritik nəzarət nöqtələri' (HACCP) sistemi tətbiq olunmalıdır. Qida ilə təmasda olan qablar insan sağlamlığına zərər verməməli, meyvələr təmiz və pestisid qalıqlarından azad olmalı, su mikrobioloji cəhətdən təhlükəsiz olmalı, şəkər və əlavələr uyğun dozada istifadə edilməlidir".

***Fatimə Əliyeva***

# “Qarabağdan sonra növbə Zəngəzurdadır”

## Türkiyəli jurnalistdən açıqlama

**“Türkiyə, Azərbaycan və Ermənistanın, Cənubi Qafqazda İran və Rusiyanın təsirini potensial olaraq zəiflədəcək Zəngəzur Dəhlizi layihəsi üzrə razılaşmaya yaxınlaşdıqları barədə çoxsaylı hesabatlar mövcuddur”.Bu sözləri SİA-ya açıqlamasında türk jurnalist Ayşegül Akyüz Yahşi deyib.**

Onun sözlərinə görə, Rusiya isə qeyri-müəyyənlik içindədir və dəhlizin açılmasını çətinləşdirəcək addımlar atmağa çalışır. Azərbaycanla Ermənistan arasında yaxınlaşma Moskvanı narahat edir: ”Belə ki, Rusiya ərazisində azərbaycanlılara qarşı hədəfli basqınlar və həbslər həyata keçirir. Azərbaycan-Rusiya gərginliyi əslində son beş ildir davam edən və zaman-zaman təhdidkar yanaşmalarla müşayiət olunan bir prosesə söykənir. Təyyarə qəzasından işgəncə nəticəsində ölümə qədər uzanan bu gərginliyin yaxın günlərdə hansı nəticələr verəcəyini proqnozlaşdırmaq çətindir.

Azərbaycanla Ermənistan arasında baş verən son hadisələr bu gərginliyi daha da artırıb. Kreml narahatlığını gizlətmir. Ermənistan isə bu mərhələdə diqqət çəkəcək dərəcədə müsbət yanaşma sergiləyir. Paşinyanın Türkiyə səfəri Ankara-İrəvan münasibətlərində yeni dövrün formalaşmasına töhfə verəcək əhəmiyyətli addım kimi qiymətləndirilir. Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanın yaxın günlərdə bir araya gələcəyi bildirilir. Bu görüşün Dubayda keçirilməsi planlaşdırılır. Sözügedən görüşün Dağlıq Qarabağ münaqişəsinin həlli və bölgədə sülhə doğru mühüm addım olması ehtimal olunur. Rusiya üçün isə bu yaxınlaşma Zəngəzur dəhlizindən daha strateji əhəmiyyət daşıyır.

Azərbaycan bu prosesdə ehtiyatla irəliləyir. Mədəniyyət Nazirliyi Rusiyada azərbaycanlılara qarşı həyata keçirilən zorakılıqlardan sonra mədəni tədbirləri və festivalları dayandırdı. Rusiya azərbaycanlıları hər an basqına məruz qalmaq qorxusu ilə yaşayır. Hətta yerli mətbuatda Azərbaycanla bağlı xəbərlərə belə senzura tətbiq olunur.

İranın Zəngəzur dəhlizinə dair narahatlıqları olsa da, o, Rusiya tərəfindən istifadə ediləcək alət deyil. Hazırda Ermənistanla razılaşma əldə olunması İranın da prosesə tərəf kimi daxil olacağına işarə kimi qiymətləndirilir.



Zəngəzur dəhlizinin açılması Azərbaycanla Naxçıvanı, oradan da Türkiyəni birləşdirəcək birbaşa əlaqəni təmin edəcək. Bununla yanaşı, Azərbaycan üzərindən Türkiyə ilə Rusiya arasında fasiləsiz quru və dəmiryolu bağlantısı mümkün olacaq. Həmçinin dəhliz, Naxçıvanı və Azərbaycanı Xəzər dənizi vasitəsilə Asiyaya bağlayacaq. Bu marşrut Sakit və Atlantik okeanları arasında ən qısa tranzit yol kimi çıxış edəcək, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat xətləri üzrə strateji bir qovşaq rolunu oynayacaq. Nəticədə Zəngəzur Avropa ilə Asiya arasında yükdaşımaları üçün əhəmiyyətli bir arteriya funksiyası daşıyacaq. Dəhlizin açılması yalnız bölgə ticarətini deyil, dünya ticarətini də əhəmiyyətli dərəcədə təsirləndirəcək. Belə bir ümumi mərağın mövcud olduğu şəraitdə Rusiyanın da Zəngəzur dəhlizinə müsbət yanaşması gözləniləndir.

Son zamanlar iki ölkə arasında münasibətləri korlamağa yönəlmiş neqativ davranışlar Rusiyayla Azərbaycanın münasibətlərinə zərər vurmaq məqsədi daşıyan ”beşinci kolon” fəaliyyətindən qaynaqlana bilər”.




Jurnalist qeyd edir ki, bu fəaliyyətin arxasında dayana biləcək tərəflər də nəzərdən keçirilməlidir. Ukrayna, Rusiyaya qarşı yeni bir cəbhə açmaq istəyir. Müharibədən yorulmuş, torpaq və enerji resursları tükənməkdə olan Kiyev, Rusiyanın diqqətini yayındırmaq niyyətində ola bilər. Böyük Britaniya isə BP şirkətləri vasitəsilə Azərbaycanın enerji sektorunda güclü təsirə malikdir və Rusiyanın Ukraynadakı gücünü zəiflətmək istəyir. Digər tərəfdən, İsrail də İran məsələsində Rusiyadan gələn açıqlamalardan narazıdır. Medvedevin İranın nüvə başlıqları ilə bağlı alternativ dəstəklərindən bəhs etməsi İsrailin qəzəbinə səbəb olubsa, cavab tədbiri kimi bu fəaliyyətlər gündəmə gələ bilər.

Nəticə etibarilə, türk dünyasının parlayan ulduzu Zəngəzur dəhlizi üzərindəki sis pərdəsi tezliklə aralanmalıdır. Bu tarixi layihə, xalqların taleyini dəyişəcək qədər mühüm əhəmiyyət daşıyır və onu qeyri-milli qüvvələrin iradəsinə buraxmaq olmaz.

Sözün qısası, bu məsələdə də əsas missiya Prezident Rəcəb Tayyib Ərdoğana düşür. Beynəlxalq sülhün simvoluna çevrilmiş Prezident Ərdoğan, Rusiyayla Azərbaycanı eyni masa arxasına gətirərək razılaşmanı təmin etməlidir. Bu razılaşmanı quracaq yeganə güc və iradə isə, Türkiyə Yüzyılı daxilində Zəngəzur kimi bir layihənin memarı olan Türkiyə və onun lideri Ərdoğandır.

***G. Fərzəliyeva***

# İnsanların istirahəti necə təşkil olunur?

Sorğu

***Artıq yay fəslinin ən qızmar günləri yaşanır. Havaların istiləşməsi ilə bir çox insan sərinlik axtarışında olur, bəziləri isə istirahət və asudə vaxtlarını səmərəli keçirmək üçün müxtəlif planlar qururlar. İstər şəhər həyatının səs-küyündən uzaqlaşmaq, istərsə də təbiət qoynunda dincəlmək məqsədilə istirahət məkanlarına üz tutanların sayı az deyil.***

***Bəs görəsən, sakinlər yay aylarında öz asudə vaxtlarını necə keçirirlər? Ən çox hara gedirlər və ya getməyi planlaşdırırlar? SİA bu məsələ ilə bağlı şəhər sakinləri arasında sorğu edib.***

**Şəhər sakini Tamerlan Əhmədov:** ”Əsasən asudə vaxtım olmur. Vaxtımın demək olar ki, çox hissəsini işə sərf edirəm. Buna görə də istirahət etməyə imkan tapmıram. Əgər işim olmasa və bir qədər boş vaxtım olsa, bəlkə də harasa istirahətə getmək istəyə bilərəm. Ancaq hazırda buna şərait yaranmır”.

**Şəhər sakini Lamiyə Məmmədova:** ”Asudə vaxtlarımı adətən bağ evində keçirməyi sevirəm. Təbii mühitdə olmaq mənə rahatlıq və enerji verir. İstirahətə getmək planlarım isə əsasən maraqlı coğrafi dəyişikliklər üzərində qurulub - yayda qış olan ölkələrə, qışda isə yay olan ölkələrə getmək istəyirəm. Dəyişiklik və müxtəliflik mənim üçün vacibdir, çünki fərqli mühitlərdə olmaqdan zövq alıram”.

**Şəhər sakini Tural Kazımov:** ”Demək olar ki, istirahət vaxtımız yoxdur. Səhər saat 12-də şəhərə gəlirik, axşam 12-yə qədər işləyirik. Bu qədər gərgin və uzun iş saatları içində istirahət etməyə, harasa getməyə nə güc qalır, nə də vaxt. İndiki dövrdə istirahətə getməyi planlaşdırmaq belə bizim üçün çətindir. Gələcəkdə daha rahat bir iş rejimi olsa, yəqin ki, istirahət üçün fürsət yaradar və bu haqda düşünə bilərik”.

**Şəhər sakini Mürsəl Hüseynov:** ”Demək olar ki, asudə vaxtımı idman edərək və kitab oxuyaraq keçirirəm. Bəzən elə olur ki, rayonlara istirahətə də gedirəm. Əsasən Qarabağa üstünlük verirəm - illərlə həsrətində olduğum bu torpaqlara getmək mənim üçün həm emosional, həm də ruhən bir rahatlıq mənbəyidir. Yəqin ki, fürsət düşdükcə yenə gedəcəyəm. Eyni zamanda işlə bağlı bir neçə bölgəyə səfər etmişəm və bu səfərlər zamanı da qismən istirahət edə bilmişəm”.

**Şəhər sakini Əli Muxtarov:** ”Asudə vaxtımı əsasən kitab oxumaq və futbolla məşğul olmaqla keçirirəm. Bu yay bağ evinə istirahətə getmişəm. Hazırda konkret planlaşdırdığım yeni bir yer yoxdur. Amma bir neçə həftə sonra, çox güman ki, qərar verəcəyəm. Böyük ehtimalla ölkəmizin gözəl və füsunkar bölgələrindən birinə istirahətə üz tutacağam”.

**Tələbə Səma Əmrəlizadə:** ”Yay vaxtında demək olar ki, davamlı olaraq işləyirəm, boş vaxtım qalmır. Tələbə olduğuma görə çalışıram ki, öz ehtiyaclarımı özüm qarşılayım və maddi cəhətdən asılı olmayım. Bu yay ümumiyyətlə heç bir yerə istirahət üçün getməyi düşünmürəm. Vaxtım olmadığına görə diqqətimi yalnız işləməyə yönəltmişəm və əsas məqsədim gəlir əldə etməkdir”.



**Tələbə Şəbnəm Eminli:** ”Hazırda həm işləyirəm, həm də tələbəyəm. Boş vaxtlarımda daha çox rəfiqələrimlə gəzməyə gedirəm. Amma o qədər də boş vaxtım olmur, ona görə də istirahətə getmək mənim üçün real deyil. Əgər getmək imkanım olsa, xarici ölkələrə səyahət etmək istərdim. Lakin hazırda bu mümkün olmadığından bütün vaxtımı işə sərf edirəm”.

**Şəhər sakini Elvin Kazımov:** ”Asudə vaxtım sonuncu dəfə təxminən üç il əvvəl olub - o zaman Şabran rayonunun Zeyvə kəndinə getmişdim. Ümumiyyətlə, yay aylarında rayonlarımızda istirahət etməyə üstünlük verirəm. İmkan olsa, indi də istirahətə getmək istərdim. Amma iş rejimim və məsuliyyətlərim səbəbindən son illər ərzində heç bir istirahətə vaxt ayıra bilmirəm”.

***Günel***

# Ölkəmizin uğurlu enerji diplomatiyasının 14-cü ünvanı - Suriya

## Prezident İlham Əliyevin siyasi iradəsi nəticəsində regional enerji təhlükəsizliyinin qlobal coğrafiyanı əhatə etməsi Azərbaycanın Yaxın Şərqdə ixrac imkanlarının şaxələndirilməsinə açılan yoldur

Ötən il Bakıda 197 ölkənin iştirakı ilə keçirilən, iqlim dəyişmələrinə aid ən mühüm problemlərin müzakirə olunduğu COP29 Azərbaycanın enerji diplomatiyasının, "Yaşıl gündəliyi"nin təqdimatı kimi tarixə yazıldı. Qlobal iqlim gündəliyinə töhfə verən, ekoloji tarazlığa xüsusi diqqətlə yanaşan, ənənəvi enerji resursları ilə birgə alternativ mənbələrdən istifadənin tətbiqi sahəsində zəngin təcrübəyə malik Azərbaycan etibarlı təchizatçı kimi proqnozlarını dı açıqladı. "Yaşıl gündəliyi" zəngin olan, 2030-cu ilə qədər artıq imzalanmış investisiya müqavilələri əsasında ən azı 6 giqavatlıq yaşıl enerjini, o cümlədən Günəş, külək və su elektrik enerjisini istehsal etməyi planlaşdıran ölkəmizin su elektrik enerjisi istehsalında Qarabağ və Şərqi Zəngəzur xüsusilə fərqənir. Həmin bolgələrdə ümumi 280 meqavat gücündə 30 kiçik su elektrik stansiyasının istismara verilməsi ilə "Yaşıl gündəliyi"mizin əhatə dairəsi genişlənib. Ən az inkişaf etmiş ölkələrdə iqlim dəyişmələri məsələlərinin həlli üçün xüsusi fonda 10 milyon ABŞ dolları vəsait ayıran respublikamızda "Yaşıl Keçid Proqramı" həyata keçirilməklə neft və qaz hasilatının gələcəyimiz üçün təminat məsələləri də diqqətdə saxlanılır. Enerji təhlükəsizliyi sahəsində Qlobal Cənub və Qlobal Şimal arasında körpü olan, COP29-un mühüm nailiyyətlərindən sayılan, 10 il ərzində müzakirə mövzusuna çevrilməklə aktuallığını qoruyan karbon bazarlarının fəaliyyəti ilə bağlı 6-cı maddə üzərində razılığın Azərbaycanda əldə olunması, bu məqsədlə nəzərdə tutulan vasaitin 100 milyarddan 300 milyard ABŞ dollarına qədər artırılması önəmli nailiyyət idi. Bu gün Azərbaycan müxtəlif qaz boru kəmərləri vasitəsilə bir çox ölkələrə təbii qaz ixrac edir. Bu göstəriciyə görə, ölkəmiz dünyada ön sıralardadır. Azərbaycanın təbii qazının nəql olunduğu coğrafiya genişlənməkdədir. Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya Hökumətləri arasında Avropa Komissiyası Prezidentinin iştirakı ilə yaşıl enerjinin ötürülməsinə dair Buxarestdə imzalanan Sazişə uyğun daha səmərəli imkanların yaranacağı ilə bağlı deyilənlər artıq reallaşır. Azərbaycanın yaşıl enerji layihələri ilə Avropanın enerji təchizatına yeni istiqamətlər əlavə olunur. Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu"nun imzalanma mərasimində qitə dövlətlərinin enerji təhlükəsizliyində etibarlı tərəfdaş olan Azərbaycanın həlledici rolunun etiraf edilməsi ölkəmizin enerji diplomatiyasının məntiqi nəticəsidir. "Həmrəylik Halqası" təşəbbüsünün reallaşması ilə Azərbaycan qazının Avropa İttifaqına üzv ölkələrə çatdırılması üçün əlavə marşrutların formalaşması yeni hədəflərə çatmağın ən asan yoludur. Çünki yeni layihə olan "Həmrəylik Halqası" təşəbbüsünün reallaşması ilə Cənub Qaz Dəhlizinin ötürücülük imkanları daha da artacaq.

"Həmrəylik Halqası"nı, Anlaşma Memorandumunu Avropa İttifaqına üzv dövlətlər ilə Azərbaycan arasında "Strateji Tərəfdaşlıq haqqında Bəyannamə"yə və digər sazişlərə uyğun davam edən tərəfdaşlığın məntiqi nəticəsi adlandıran dövlət başçımız İlham Əliyevin vurğuladığı kimi, qitə dövlətlərinin üçdə birinin ölkəmizlə əməkdaşlığı səmimi münasibətlərin etibarlı gələcəyidir. Hazırda Gürcüstana, Türkiyəyə, Yunanıstana, Bolqarıstana və İtaliyaya ixrac edilən Azərbaycan qazının Rumıniyaya da çatdırılması bu əməkdaşlığın uğurlu, məntiqi nəticəsidir. Nəzərdə tutulan digər interkonnektorların yaradılması ilə

proqnozları "Biz qaz təchizatımızın coğrafiyasını 6 ölkədən, ən azı 10 ölkəyə qədər genişləndirəcəyik" özləri ilə diqqətə çatdıran Prezident İlham Əliyevin davam etdirdiyi neft strategiyası nəticəsində ölkəmizlə əməkdaşlıqda maraqlı olan tərəfdarları sayı gözlənildiyindən də artıq çoxalıb.

Təkcə Avrora qitəsində deyil, İqtisadi




Əməkdaşlıq Təşkilatı (ECO) çərçivəsində enerji və nəqliyyat sahələrində mühüm strateji mövqeyə malik Azərbaycan yalnız enerji resurslarının hasilatında deyil, həm də onların beynəlxalq bazarlara daşınmasında tranzit ölkə kimi mühüm rol oynayır. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və Cənub Qaz Dəhlizi kimi layihələr ECO məkanında enerji təhlükəsizliyinin təmin olunmasına əhəmiyyətli töhfələr verir. Qlobal Cənubun önəmli hissəsi olan Azərbaycan ECO çərçivəsində yaşıl enerji təşəbbüslərinə də böyük diqqət yetirir. Bakıda ECO regionu üçün "Təmiz Enerji Mərkəzi"nin yaradılması ilə bağlı aparılan müzakirələr də Azərbaycanın bu sahədəki liderlik iddiasını bir daha ortaya qoyur. "Regional gündəliyə gəldikdə, onu da qeyd edə bilərəm ki, biz yaşıl enerji layihələri üzərində çalışırıq. Çünki təkcə Azərbaycanda deyil, Mərkəzi Asiya ölkələrində də Günəş və külək elektrik enerjisi stansiyaları yaradılır. Ötən ilin noyabrında Bakıda COP29 çərçivəsində Özbəkistan, Qazaxıstan və Azərbaycan prezidentləri arasında yaşıl enerji ilə bağlı Xəzər dənizinin dibi ilə elektrik kabelinin çəkilməsi layihəsi imzalandı ki, Mərkəzi Asiyada istehsal olunan yaşıl enerji Azərbaycanın infrastrukturuna birləşdirilsin. Ona qədər Azərbaycan, Gürcüstan, Rumıniya, Macarıstan arasında da buna bənzər sənəd imzalandı ki, belə bir yaşıl enerji kabeli Qara dənizin dibi ilə çəkilsin. Yəni, region təkcə Cənubi Qafqazı əhatə etmir. Biz daha geniş coğrafiyanı əhatə edirik" söyləyən Prezident İlham Əliyevin vədinin reallığının nümunəsi bu günlərdə Azərbaycan təbii qazının 14-cü dövlət olan Suryaya nəqlidir.



İyulun 12-də Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə geniş tərkibdə görüşən Prezident İlham Əliyev bu səfəri ikitərəfli əlaqələrimizin inkişafında mühüm əhəmiyyətə malik hadisə adlandırdı. Uzun illər ərzində Azərbaycana münasibətdə qeyri-dost siyasəti həyata keçirən Suriyadakı əvvəlki hökumətin vaxtında münasibətlərimizdə durğunluğun olduğunu deyən dövlətimizin başçısı vurğuladı ki, Suriyada yeni hakimiyyətin qurulmasından sonra əlaqələrimizin inkişafı üçün böyük perspektivlər yaranıb. Suriyada yeni hökumət formalaşdıqdan sonra Azərbaycan Xarici İşlər Nazirliyinin və Baş nazirin müavininin rəhbərliyi ilə nümayəndə heyətinin Suriyaya səfərini xatırladan Prezident İlham Əliyev həmin görüşlərdə müxtəlif sahələrdə qarşılıqlı əməkdaşlığın inkişafı ilə əlaqədar layihələrin müzakirə edildiyini vurğulamışdı. Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraanın Antalya Diplomatiya Forumu çərçivəsində Prezident İlham Əliyevlə görüşü ilə əlaqələrin inkişafı üçün stimul yarandı. Suriyaya göstərdiyi qardaşlıq dəstəyinə görə dövlət başçımıza təşəkkürünü bildirən Əhməd Əl Şaraa ölkəsinin Azərbaycanla siyasi, iqtisadi-ticari, mədəni, humanitar və digər sahələrdə əməkdaşlıqda maraqlı olduğunu bildirdi. Görüşdə ölkələrimiz arasında xüsusilə enerji sahəsində əməkdaşlığın vacibliyi qeyd edildi, Suriyanın hazırda ciddi enerji problemi ilə üzləşdiyi bildirildi. Bu xüsusda yaxın zamanlarda Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya ixracı layihəsinin həyata keçiriləcəyi vurğulandı və bunun Suriyanın enerji təhlükəsizliyinə töhfə verəcəyi qeyd olundu. Azərbaycanın Suriyanın energetika sahəsinin bərpasına töhfə vermək iqtidarında olduğu diqqətə çatdırıldı.

Avropadan sonra Yaxın Şərqə qaz icracına başlayan Azərbaycanın şaxələndirmə siyasətinin cografiyası daha da genişləndi. Azərbaycan qazının yeni istehlakçı Suriyaya nəqli ilə bu ölkənin elektrik enerjisinin verilişi gündə 3-4 saatdan 10 saata qaldırılacaq. Bu, layihə Suriyanın yenidən qurulmasına, İslam həmrəyliyinin möhkəmlənməsinə, öz azadlığı uğrunda mübarizəyə qalxan suriyalılara qardaş dəstəyidir. Bu qazdan Hələbdə yerləşən stansiyada elektrik enerjisi istehsalı məqsədilə istifadə ediləcək və təxminən 1200 meqavatlıq elektrik enerjisinə çevriləcək. Beləliklə, Suriyada hazırda istehsal olunan elektrik enerjisinin miqdarı təxminən iki dəfə artacaq. Suriyaya qədər uzanan Azərbaycan və Türkiyə qardaşlığının ortaq baxışının daha bir nümunəsi gerçəkləşdi. Neft və təbii qaz istehsalçısı olan Azərbaycanın Şərqə doğru qlobal enerji bazarının artacağına nümunə olan Suriya variantının gerçəkləşməsi tarixi hadisə kimi dəyərləndirildi.

Azərbaycan, Qətər, Suriya və Türkiyə rəsmilərinin birgə açıqlamasında qeyd olunduğu kimi, bu hadisə sözügedən 4 ölkə arasında əlaqələrin dərinləşdirilməsində mühüm addımdır. Ölkə iqtisadiyyatının inkişafına, insanların həyat şəraitinin yaxşılaşmasına bilavasitə töhfə və humanitar addım olan Azərbaycan qazının Suryaya çatdırılması regionda sülhün, sabitliyin və rifahın möhkəmləndirilməsinə yönələn birgə səyləri artıracaq.

Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya nəqlinə başlanılması müqasibətilə Kilis əyalətinin Yavuzlu kəndində keçirilən mərasimdə çıxış edən Azərbaycanın iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarovun vurğuladığı kimi, razılaşmalar əsasında, qısa müddət ərzində Azərbaycan təbii qazının Türkiyə ərazisi ilə Suriyaya nəql olunması ölkəmizin Şərqə yönələn enerji ixracının tarixində mühüm mərhələnin başlanğıcıdır. Reallaşan bu layihə dost ölkənin enerji təhlükəsizliyinə mühüm töhfə verəcək. Azərbaycanla Türkiyə arasında enerji sektorunu əhatə edən strateji tərəfdaşlıq nəticəsində tarixi əhəmiyyətə malik bu layihənin uğurla reallaşdı. Qeyd edildi ki, hər iki ölkə Suriyanın yenidən qurulması və inkişafına dəstək göstərmək istiqamətində birgə fəaliyyət göstərir və bu sahədə əhəmiyyətli addımlar atılır. Cənubi Qafqaz ilə Yaxın Şərq arasında yeni enerji körpüsünün əsası qoyulur. Azərbaycanın qaz ixrac etdiyi 14-cü ölkə olan bu təşəbbüs ölkəmizin regional və qlobal enerji təhlükəsizliyinin təmin olunmasında əvəzsiz rolunu bir daha təsdiqlədi. Türkiyə-Suriya Təbii Qaz Boru Xəttinin açılışı ilə Azərbaycandan Suriyaya qaz nəqlinin başlanması ölkəmizin etibarlı və strateji enerji təchizatçısı olduğunu bir daha nümayiş etdirir. Bu layihə ölkəmizin qaz ixracı coğrafiyasının yeni istiqamətlər üzrə genişləndirilməsinə mühüm töhfələr verəcək. Suriyanın dövlət nümmayəndələri ölkələrinə göstərilən dəstəyə görə Azərbaycan və Türkiyə dövlətlərinə təşəkkür edərək gündəlik 6 milyon kubmetr təbii qazın nəqlini dost töhfəsi adlandırdılar. İlk mərhələdə illik 1,2 milyard kubmetr qazın Suriyaya ixracı planlaşdırılır. Bunun sayəsində Suriyada 1200-1300 meqavatlıq elektrik enerjisi istehsal ediləcək. Azərbaycan-Suriya əlaqələri ölkəmizin Yaxın Şərq siyasətinin bir hissəsinə çevrilməklə daha böyük coğrafiyanı əhatə edəcək. Məhz Prezident İlham Əliyevin siyasi iradəsi nəticəsində regional enerji təhlükəsizliyin daha bir nümunəsi reallaşdı. Dağıdılan Suriyaya qaz nəqli Azərbaycanın Yaxın Şərqdə ixrac imkanlarının şaxələndirilməsinə açılan yol deməkdir. Açıqlamalara görə, Suriya "Ərəb qaz" şəbəkəsi adlandırılan sistemə qoşulub. Bu şəbəkəyə Livan, İordaniya və Misir də daxildir. Yəni, ehtiyac yarandığı zaman Azərbaycanın qazı bu ölkələrə də ixrac edilə bilər.

***Xuraman İsmayılqızı***

# Xəzərdə yeni format

## *Özbəkistan, Türkmənistan və Azərbaycan yeni hədəflərə doğru*




**"Coğrafiya dövlətlərin taleyini həll etməməlidir!" - belə bir gurultulu bəyanatla BMT-nin Baş katibi Antonio Quterreş Xəzər dənizinin Türkmənistan sahilində keçirilən BMT-nin dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr üzrə III konfransında çıxış edib. İddialı məqsəd Avaza Proqramı çərçivəsində "yeni fəaliyyət onilliyi"nə başlamaqdır. Bu genişmiqyaslı forum 32 dövlətin potensialını açmaq, həmçinin mövcud nəqliyyat layihələrini gücləndirmək və yeni inkişaf yollarını müəyyən etmək üçün nəzərdə tutulub. Tədbir çərçivəsində ikitərəfli və çoxtərəfli səviyyələrdə mühüm danışıqlar aparılıb.**

Xəzər sahilindəki Avaza turizm zonasında BMT-nin dənizə çıxışı olmayan ölkələrin inkişaf problemlərinə həsr olunmuş genişmiqyaslı konfransı davam edir. Bununla belə, Antonio Quterreşin dediyi kimi, "konfrans problemlər haqqında deyil, imkanlar haqqındadır". O, 32 dövlətin "potensialını üzə çıxarmaq" üçün nəzərdə tutulmuş birgə iş üçün dörd əsas sahə müəyyən edib. Rəqəmsallaşma və innovasiya vasitəsilə iqtisadi sıçrayış: diqqət sənaye və yeni texnologiyalara cəsarətli investisiyalara yönəlib. Rəqəmsallaşma, o cümlədən qadınlar və kənd sakinləri üçün təlimlər coğrafi maneələri dəf etməyə və qlobal bazarlara çıxmağa kömək edəcək.

Ticarət və nəqliyyat: dəhlizlərdən vahid qaydalara qədər - həm fiziki infrastrukturu (yollar, şəbəkələr), həm də "proqram təminatı" inkişaf etdirmək, prosedurları sadələşdirmək və standartları uyğunlaşdırmaq lazımdır. Quterreş qlobal ticarətin dənizə çıxışı olmayan ölkələrin ehtiyaclarını daha yaxşı ödəməsi üçün islahatların aparılmasına və tranzit ölkələrlə əlaqələrin gücləndirilməsinə çağırıb.




Digər sahə iqlimlə bağlıdır. Emissiyaların əhəmiyyətsiz olmasına baxmayaraq, dənizə çıxışı olmayan ölkələr iqlim böhranından digərlərindən daha çox əziyyət çəkirlər. BMT-nin Baş katibi uyğunlaşma maliyyəsini ikiqat artırmaqda, erkən xəbərdarlıq sistemlərini inkişaf etdirməkdə və 2025-ci ilin noyabrında Berlində keçiriləcək COP30 iqlim konfransına iddialı yanaşmada təkid edir. Quterreş hesab edir ki, yaşıl keçid onlar üçün əsl tramplin ola bilər. BMT-nin baş katibi qlobal maliyyə sisteminin iflasa uğradığını bəyan edib. O, inkişaf banklarının kredit imkanlarının üç dəfə artırılmasına, borcların idarə edilməsində islahatların aparılmasına və beynəlxalq vergi əməkdaşlığının gücləndirilməsinə çağırıb.

Sonda Quterreş vurğulayıb ki, bu ölkələrin uğurları bütün 2030-cu il gündəliyinin uğurunun açarıdır. Onun sözlərinə görə, əsas vəzifə coğrafi maneələri xalqları, bazarları və mədəniyyətləri birləşdirən körpülərə çevirmək, hamı üçün daha ədalətli və davamlı gələcək yaratmaqdır.

Türkmənistan Avropa İttifaqını öz gələcəyinin açarı kimi görərək, onunla sıx əməkdaşlıq etməyi hədəfləyir. Xarici işlər naziri Rəşid Meredovun BMT-nin dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr üzrə III Konfransında bəyan etdiyi kimi, ölkə Aİ ilə bütün sahələrdə əməkdaşlığı fəal şəkildə inkişaf etdirməyə hazırdır. Nəqliyyat əlaqəsinə, xüsusən də Aİ-nin "Qlobal Dəhlizlər" strategiyasına uyğun dəhlizlərin inkişafına xüsusi diqqət yetirilir. Türkmənistan artıq bu strategiya üzrə investisiya forumunda iştirak edib və oktyabrda keçiriləcək sammitə hazırlaşır. Regional nəqliyyat məsələləri daha əvvəl Aİ-nin ali nümayəndəsi Kaja Kallas ilə müzakirə olunub. Meredovun sözlərinə görə, Aşqabad təkcə nəqliyyat və enerji (yaşıl enerjiyə diqqət yetirməklə) deyil, həm də ticarət, təhsil, elm və digər sahələrdə əməkdaşlığı genişləndirməyə hazırdır.

Qazaxıstanlı politoloq, Risklərin İnkişafı Qrupunun direktoru Dosım Satpayev hesab edir ki, coğrafiyadan şikayətlənmək yox, öz taleyini idarə etmək lazımdır. "Aydındır ki, coğrafiya taledir. Amma bu taleyi də ağıllı idarə etmək olar. Ona görə də coğrafi yerləşmə iqtisadi uğursuzluqlara səbəb deyil. Əsas problemlər səmərəsiz idarəetmə, korrupsiya, xammaldan asılılıq və yüksək əlavə dəyərə malik məhsulların olmamasıdır. Bu amillər dənizə çıxışın olub-olmaması deyil, ölkənin uğurunu şərtləndirir", - Satpayev bildirib.

Ekspert vurğuladı ki, dünyada - Afrikada, Asiyada və ya Latın Amerikasında dəniz və okeanlara çıxışı olan çoxlu ölkələr var, lakin bu, onları daha zəngin və daha uğurlu etməyib. Problem ondadır ki, onların siyasi və iqtisadi sistemləri təsirsizdir. Dövlətin coğrafi baxımdan harada yerləşməsinin fərqi yoxdur - Qazaxıstan və digər Orta Asiya ölkələri kimi dənizə çıxışı olmayan ölkədə və ya dəniz küləklərinə açıq. "Təəccüblü deyil ki, bu cür çıxışı olan 30-dan çox Afrika ölkəsinin əksəriyyəti yoxsuldur, dənizə çıxışı olmayan İsveçrədən fərqli olaraq, Avropanın ilk 10 zəngin ölkəsi sırasındadır", - Satpayev vurğulayıb. Ekspert qeyd edib ki, rəqəmsal əsrdə coğrafiya getdikcə daha az əhəmiyyət kəsb edir, xüsusən də intellektual məhsul ixrac edənlər üçün.

BMT-nin Avaza konfransı çərçivəsində yeni regional ittifaq yaranıb: Özbəkistan, Türkmənistan və Azərbaycan üçtərəfli əməkdaşlıq formatına başlayıb. Türkmənistanın lideri, Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Azərbaycanın Baş naziri Əli Əsədov və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ilə görüşərək qarşılıqlı faydalı layihələri müzakirə edib. Enerji, nəqliyyat, sənaye və kənd təsərrüfatına xüsusi diqqət yetirilib. Berdiməhəmmədov və Mirziyoyev Azərbaycanın Mərkəzi Asiyada artan rolunu vurğulayıblar. Bu yeni formatın əhəmiyyətinə toxunan Berdiməhəmmədov qeyd edib ki, bu formatın Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən fəal dəstəklənməsi onu zamanın tələblərinə cavab verən daimi təcrübəyə çevirəcək.

Liderlərin "Mərkəzi Asiya və Azərbaycan" formatında görüşü də keçirilib, Şavkat Mirziyoyevin elan etdiyi kimi, noyabrda Özbəkistanda keçiriləcək məşvərət görüşünə hazırlıq müzakirə olunub. Özbəkistan lideri sədrliyin konsepsiyasını və tədbirlər planını açıqlayıb. Onun sözlərinə görə, Daşkənddə keçiriləcək sammit ərəfəsində artıq nazirlər və təhlükəsizlik şuralarının katibləri səviyyəsində çoxlu görüşlər keçirilib və yeni görüşlərin keçirilməsi nəzərdə tutulub. Özbəkistan dialoqun dərinləşdirilməsi, iqtisadiyyatın stimullaşdırılması, ticarət və nəqliyyatın inkişafına, o cümlədən su, enerji və iqlim məsələlərində əməkdaşlığa yönəlmiş bir sıra təşəbbüslər irəli sürmək niyyətindədir. Azərbaycanla ticarət, nəqliyyat və yaşıl enerji sahələrində uğurlu tərəfdaşlıq da regional inteqrasiyanın mühüm amili kimi qeyd edilib.




***Ardı Səh. 12***

# Xəzərdə yeni format

*Özbəkistan, Türkmənistan və Azərbaycan yeni hədəflərə doğru*

Əvvəli Səh. 11

BMT-nin Avaza konfransı çərçivəsində Xəzər dənizinin taleyi əsas mövzuya çevrildi. Rusiya baş nazirinin müavini Dmitri Patruşev dəniz səviyyəsinin görünməmiş şəkildə aşağı düşdüyünü açıqlayıb ki, bu da bütün beş Xəzəryanı dövlətin iqtisadiyyatını, kənd təsərrüfatını, nəqliyyatını və turizmini təhdid edir. O, Rusiyanın konstruktiv və siyasiləşdirilməmiş qarşılıqlı fəaliyyətə hazır olduğunu vurğulayaraq, Xəzərdəki dalğalanmaların öyrənilməsi üçün ümumi standartların hazırlanması üçün çoxtərəfli mexanizmin işə salınmasını təklif edib. Patruşev dənizin qorunması və regionun davamlı inkişafı üçün Tehran Konvensiyasında da daxil olmaqla regional dialoqun intensivləşdirilməsinə çağırıb.



## Rusiya və qonşularının Volqa marağı

Qazaxıstan Rusiyaya Volqanın axınının artırılması və ya onun dayazlaşması səbəbindən Volqa suyunun hansısa yolla Xəzər dənizinə yönləndirilməsi təklifi ilə yanaşmağı planlaşdırır. Bunu bu yaxınlarda Qazaxıstanın Su Təsərrüfatı və Suvarma nazirinin müavini Bolat Bekniyaz deyib. Üstəlik, bir sıra azərbaycanlı ekspertlər də bu layihəyə qoşularaq, Qara dəniz suyunun Xəzər dənizinə - Rusiya və ya Gürcüstan sahillərindən başqa heç nə təklif etmirlər. Bir sözlə, Rusiya və Rusiyaya yaxın su ehtiyatları qonşular üçün cəlbedicidir.





Qazaxıstan baş nazirinin müavini gileylənir: "Təəssüf ki, Volqa Qazaxıstanla Rusiya arasında transsərhəd çay deyil. Ölkələrimiz arasında yalnız Ural və digər transsərhəd çaylarla bağlı razılaşmalar var. Biz bu ilin 3-cü rübündə Rusiya Federasiyasına Volqa üzrə birgə işçi qrupun yaradılması təklifi ilə çıxış etməyi planlaşdırırıq. Gələcəkdə bu iş aparılacaq".

Ənənəvi olaraq, Xəzər dənizindəki çay suyunun hər il 75-80%-i Volqadan gəlirdi, lakin son 3,5 il ərzində onun dənizə axını əhəmiyyətli dərəcədə, demək olar ki, 15% azalıb, maksimum ekspert hesablamalarına görə isə azalma təxminən 20% təşkil edib. Səbəb mənfi iqlim dəyişiklikləri və müvafiq olaraq Volqa hidroqrafiyası nəticəsində bu hövzədə getdikcə tez-tez aşağı su dövrləridir. Bundan əlavə, Rusiya Federasiyasında çayların və su anbarlarının ekoloji problemlərinə dair son forumların yekunlarına görə, orta və aşağı Volqa su anbarlarının rejimlərinin vaxtaşırı pozulması, orta və aşağı Volqa kənd təsərrüfatı suvarma sistemlərində yüksək su itkiləri, təmizlənməmiş tullantı sularının və digər tullantıların axıdılması təsir göstərir.

Volqanın və Volqa-Uralın, yəni Xəzərin Şimali Qazaxıstanın əsas sektorunun dayazlaşmasına da 1960-cı illərin əvvəllərindən geniş meşə plantasiyalarının/davamlı meşə zolaqlarının demək olar ki, ucdantutma kəsilməsi və 1940-cı illərin sonlarında - Volqa-Ural və aşağı deltaların yaxınlığında yeni yaradılmış gölməçələrin deqradasiyası 1960-cı illərin əvvəllərindən asanlaşdırılıb. Üstəlik, meşə mühafizə tədbirləri 1950-ci illərin sonunda Aşağı Volqa və onun deltasının 15% -dən çox, Xəzərin isə demək olar ki, 15% artmasına səbəb olub. Lakin tədricən meşəsalma tədbirlərinin ləğvi və çay/meşə gölməçələrinin yaradılması ilə əlaqədar bu göstəricidə əks tendensiya hökm sürməyə başlayıb.

Yuxarıda göstərilən amillər kontekstində "Rosvodoresursy"-nin rəhbəri Dmitri Kirillovla tam razılaşmaq olar: Xəzər dənizinin dayazlaşması iqlim dəyişikliyinin nəticəsidir, bu, Volqada su axınının tənzimlənməsi ilə bağlı deyil. Doğrudur, bir çox amillər, o cümlədən temperaturun dəyişməsi və nəticədə dənizin özündən buxarlanmanın artması. D.Kirillovun sözlərinə görə, "Xəzər dənizinin dayazlaşması problemini həll etmək üçün su anbarı ilə həmsərhəd olan bütün ölkələrin birgə, üstəlik, hərtərəfli səyləri lazımdır". Bu arada Qazaxıstanda uzun illərdir Volqa suyuna göz dikiblər. Belə ki, 2023-cü il fevralın əvvəlində Volqoqradda Qazaxıstanın Rusiya Federasiyasındakı səfiri Ermek Korşebaev və Volqoqrad vilayətinin qubernatoru Andrey Boçarov arasında danışıqlar zamanı diplomat deyib: "Volqoqrad vilayəti Qazaxıstanla həmsərhəddir.Volqoqrad hazırda meliorasiya layihələrini inkişaf etdirir. Volqadan bu, meliorasiya olan yerdə yem bazası məsələsi həll oluna bilərr, yem bazası isə heyvandarlığın inkişafıdır". Təəssüf ki, rayon qubernatoru konkret heç nə cavab verməyib.

Xatırladaq ki, belə bir layihə - eyni bölgədəki Volqa-Ural kanalı - 1950-ci illərin əvvəllərində inşa edilməyə başlayıb, lakin Saratov və Stalinqrad Trans-Volqa bölgəsi üçün mənfi ekoloji nəticələrə görə tezliklə ləğv edilib (1955). Həmin layihə 1970-ci illərin ortalarında, daha sonra 2010-cu illərin əvvəllərində və 2020-ci illərdə Qazaxıstanda yada düşsə də, layihə bərpa olunmayıb. Bu arada Qazaxıstanın 1920-ci illərin əvvəllərindən Kıqaçın transsərhəd sol qolu və deltaya axan bir sıra qonşu kiçik qollar vasitəsilə Volqa deltasına birbaşa çıxışı var. 2021-ci ildə qazaxıstanlı ekspertlər Kiqaç axınının Volqa deltasından suyun səviyyəsinin artması səbəbindən Uralın axdığı əraziyə, Xəzər dənizinə - Atırau şəhəri yaxınlığında (təxminən 250 km) yönləndirməyi təklif ediblər.

Xəzər dənizinə axan Qazaxıstan Emba çayının (Ural çayının Xəzər sektorunun cənub-şərqi) axını da azalır ki, bu da sahilboyu və dənizdə neft-qaz işlənməsinin nəticələri, sahilboyu meşə zolaqlarının olmaması ilə əlaqədardır. Bənzər bir vəziyyət, məlum olduğu kimi, Ural çayının Xəzər dənizinə axması ilə bağlıdır: bu çayın sululuğu onun Qazaxıstan sektorunda azalır. Bu, regionda iqlim dəyişikliyi, onun səhralaşma sürətinin yüksək olması və əvvəllər bitişik meşə plantasiyalarının demək olar ki, 100% ləğv edilməsi ilə bağlıdır.

Bundan əlavə, mövcud məlumatlara görə, sözügedən konsorsiumun podratçıları son 6 ildə Xəzər dənizinin dibindən ən azı 20 milyon ton torpaq səthinə çıxararaq, oradakı ekosistemi məhv edərək, akvatoriyanın qurumasını sürətləndiriblər. Bu, Həştərxan vilayətinə, Kalmıkiyaya, Dağıstana, eləcə də Volqanın aşağı axarlarına mənfi təsir göstərir. Deməli, Xəzərin şimalının qurumasına görə təkcə Volqanı "günahlandırmaq" olmaz.

Yada salmaq yerinə düşər ki, 1987-ci ildən Qazaxıstanın demək olar ki, bütün Xəzər regionu Volqa deltasından, daha dəqiq desək, bu deltanın Qazaxıstanla həmsərhəd sektorundan su alır. Üstəlik, hələ 1981-ci ildə Qazaxıstan hakimiyyəti Moskvanı bu bölgənin guya şəxsi su təchizatının rentabelsizliyinə inandıraraq, demək olar ki, 1300 km uzunluğunda müvafiq su kəmərinin yaradılmasında təkid edirdi. 2020-ci illərin birinci yarısında bu sistem yenidən quruldu və bu, gücünü üçdə birdən çox artırdı - gündə 170 min kubmetrə qədər. Yaxın vaxtlarda bu rəqəmin sutkada 200-215 min kubmetrə çatdırılması nəzərdə tutulur.

Gördüyümüz kimi, Qazaxıstanın Volqa su ehtiyatlarına marağı çoxdandır. Ancaq təkcə Volqada deyil. Rusiya Federasiyası ilə İşim (Yesil) transsərhəd hissəsinin Aral dənizi hövzəsinin Qazaxıstan sektoruna verilməsi hazırlanır, bu isə Rusiya tərəfi ilə razılaşdırılmayıb - ən azı, belə bir razılaşma ilə bağlı rəsmi məlumat yoxdur. Mövcud məlumata görə, Rusiya Federasiyası ilə Tobol transsərhədi üçün də analoji layihə hazırlanır.

Bakı da buna qoşulur. Azərbaycanın bir sıra KİV-ləri Volqanın Xəzərə daha çox axını ilə bağlı Qazaxıstanın təkliflərini dəstəkləməklə yanaşı, həm də bu yaxınlarda Moskvanın Xəzər dənizinin su ilə doyması ilə bağlı ona "birləşən" Qazaxıstan və Azərbaycanın mövqeyi ilə razılaşmadığı təqdirdə ciddi ölçü götürməyi planlayırlar. Rusiya mətbuatı yazır: "Bizə qarşı bəzi "sanksiyaların" (!) tətbiq oluna biləcəyini proqnozlaşdırıb. Son 3,5 il ərzində Kür çayına axan Araz çayının suyu Azərbaycan-İran su elektrik stansiyaları hesabına 3 dəfədən çox azalıb. Türkiyənin Araz və Kür üzərində qonşuları ilə razılaşdırılmayan iri su elektrik layihələri də öz töhfəsini verir və bu, Arazın Kürə axınını azaldır. Nəzərə alsaq ki, Kürün Xəzər dənizinə tökülən ümumi çayda payı yaxın vaxtlara qədər "simvolik" olmayıb, demək olar ki, 15%-ə çatıb.

Bununla belə, yuxarıda qeyd olunan hesabatlar daha böyük, üstəlik, Qazaxıstanla sinxron təkliflə bağlıdır. Azərbaycanın ADOG şirkəti Qara dəniz suyunun Rusiya və ya Gürcüstan vasitəsilə Xəzər dənizinə ötürülməsi üçün tunel tikmək təklifi irəli sürüb. İddia olunur ki, bu, Xəzər dənizində suyun səviyyəsinin sabitləşməsinə kömək edəcək. Layihənin özü isə belə çıxır ki, "ciddi ekoloji standartlara uyğun olaraq həyata keçiriləcək. Şirkət bu təşəbbüsün dövlət səviyyəsində nəzərdən keçiriləcəyinə ümid edir və səlahiyyətli orqanlarla ilkin məsləhətləşmələrə çağırır".

**V.VƏLİYEV**

# Yeni virus dalğası: hər kəs xəstədir - nə etməliyik?

**Son günlərdə müşahidə olunan geniş yayılmış xəstəlik hallarının səbəbi kimi yeni bir virusun ortaya çıxması ehtimalı mütəxəssislərin diqqətini cəlb etmişdir. Əhalinin müxtəlif yaş qruplarında rast gələnən qızdırma, boğaz ağrısı, öskürək, halsızlıq və digər infeksion simptomlar, bu virusun yüksək yoluxuculuğa malik olduğunu göstərir. SİA mövzu ilə bağlı araşdırma aparıb.**



## Mümkün virus növləri

Yeni viruslar adətən aşağıdakı kateqoriyalardan birinə aid ola bilər:
Respirator viruslar (məsələn, yeni qrip ştamları, koronaviruslar)
Enteroviruslar (bağırsaq və sinir sistemini təsir edən)

## Paragrip və adenoviruslar

Yay fəslində belə virusların artması bəzən hava dəyişiklikləri, qapalı məkanlarda sıx toplaşma və ya gigiyena qaydalarına laqeydliklə bağlı ola bilər.

## Əlamətlər





Ən çox rast gəlinən simptomlara aşağıdakılar daxildir:
Qızdırma (bədən temperaturunun yüksəlməsi)
Boğazda ağrı və qaşınma
Burun axması və ya tutulması
Öskürək (xüsusilə quru və ya bəlğəmlı)
Bədən ağrıları və halsızlıq
Bəzən ishal və ürəkbulanma



## Yoluxma yolları

Virusların yayılmasının əsas yolları:
- Damcı yolu ilə (asqırma, öskürmə zamanı)
- Toxunma yolu ilə (əllə toxunmuş səthlər, sonra ağız, burun və gözlər)
- Qapalı və havalandırılmayan məkanlarda uzun müddət qalmaq

## Görülməli tədbirlər

ARAŞDIRMA

Həkimə müraciət - Şübhəli simptomlar zamanı mütləq həkim məsləhəti alınmalıdır.
İzolyasiya - Xəstə şəxslər özlərini digərlərindən təcrid etməli, məktəbə, işə getməməlidirlər.
Güclü gigiyena - Əllərin tez-tez sabunla yuyulması və antiseptik vasitələrdən istifadə vacibdir.
Maska istifadəsi - Kütləvi yerlərdə maska taxmaq yoluxmanı azalda bilər.
Möhkəm immun sistem - Düzgün qidalanma, vitamin qəbulu və istirahət viruslara qarşı müqaviməti artırır.
Qapalı məkanların havalandırılması - Virusların yayılmasının qarşısını almaq üçün vacib tədbirdir.

## Nə zaman xəstəxanaya müraciət etməli?

Qızdırma 3 gündən çox davam edirsə,
Tənəffüs çətinliyi varsa,
Uşaqlarda və yaşlılarda ağırlaşmalar müşahidə olunursa,
Xroniki xəstəliyi olan şəxslərdə simptomlar pisləşirsə.

Yeni virusun cəmiyyət daxilində sürətlə yayılması, səhiyyə orqanlarının diqqətini tələb edir. Əhali isə həm fərdi, həm ictimai məsuliyyət daşımalı, panikaya düşmədən profilaktik tədbirlərə ciddi əməl etməlidir. Virusun xarakteri, təsir gücü və yayılma yolları ilə bağlı dəqiq elmi məlumatlar əldə edildikcə, rəsmi mənbələrin məlumatlarını izləmək vacibdir.

Yeni yayılan virus və ya ümumi respirator infeksiyalar zamanı simptomları təhlükəsiz və dəstəkləyici şəkildə yüngülləşdirmək üçün ?cə üsulları mövcuddur. Bu üsullar əlamətləri azaltmağa, immun sistemini gücləndirməyə və sağalma prosesini sürətləndirməyə kömək edə bilər.

## TƏBİİ YOLLARLA MÜALİCƏ ÜSULLARI

*Bol maye qəbulu*
İlıq su, bitki çayları, limonlu su, toyuq şorbası. Orqanizmi nəmli saxlayır, toksinlərin atılmasını sürətləndirir. Boğaz ağrısını və öskürəyi yüngülləşdirir.

*Bitki çayları*
Zəncəfil çayı: iltihabəleyhinə, immuniteti gücləndirir. İtburnu çayı: C vitamini ilə zəngindir. Nanə-limon çayı: burun tutulmasını və baş ağrısını azaldır. Çobanyastığı çayı: sakitləşdirici və bəlğəmgətirici təsirə malikdir.

*Bal və zəncəfil qarışığı*
1 ç.q. bal + 1 ç.q. rəndələnmiş zəncəfil boğazı yumşaldır, öskürəyə qarşı faydalıdır.

*Sarımsaq*
Təbii antibiotikdir. İstifadə qaydası: gündə 1 diş çiy sarımsaq yemək və ya isti yeməklərə əlavə etmək.

*Buxar inhalasiyası (tənəffüs vannası)*
İsti suya dəfnə yarpağı, nanə, evkalipt yağı əlavə edib buxarla nəfəs almaq. Burun tutulmasını və boğaz iltihabını azaldır.

*Duzlu su ilə qarqara*
1 stəkan ılıq su + 1/2 ç.q. duz boğaz ağrısını azaldır, iltihabı yumşaldır.

*C vitamini ilə zəngin qidalar*
Portağal, limon, kivi, nar, qara qarağat, yaşıl tərəvəzlər immuniteti gücləndirir.

## Yuxu və dincəlmə

Orqanizmə istirahət vermək, yataq rejimini qorumaq müalicənin əsas hissəsidir. İmmun sisteminin effektiv çalışması üçün vacibdir.
Təbii üsullar yardımçı müalicə kimi istifadə edilməlidir. Əgər:
Qızdırma 3 gündən çox davam edirsə,
Tənəffüs çətinliyi yaranıbsa,
Ağır halsızlıq, ürəkbulanma və ya dözümsüz öskürək varsa mütləq həkimə müraciət olunmalıdır.

***Ayşən Vəli***

# "Hər şey plana uyğun getsə Bakı, İrəvan və Vaşinqton öz məqsədinə çatar"



"ABŞ Prezidenti Donald Tramp avqustun 8-də Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşəcək. "The Washington Post" nəşri bu barədə iki yüksək vəzifəli Ağ Ev rəsmisinə istinadən məlumat yayıb. Bildirilir ki, görüşün məqsədi münaqişəyə son qoymaq üçün sülh sazişinin əldə edilməsidir". Bu sözləri SİA-ya açıqlamasında politoloq Turan Rzayev deyib.Turan Rzayev sözlərinə belə davam edib: "Prezident İlham Əliyev və Nikol Paşinyanın Trampla ayrıca görüş keçirməsi də planlaşdırılır. Rəsmilərdən biri cümə günü keçiriləcək görüşdə tərəflər arasında sülh razılaşmasının elan olunmasının mümkünlüyünü açıqlayıb.İlk növbədə onu qeyd edim ki, Trampın hər iki dövlət başçısı ilə ayrı-ayrılıqda görüşməsi müsbət haldır. Bu, Vaşinqtonun məsələyə həssas və tərəfsiz yanaşmaq niyyətindən irəli gəlir. Əslində, iki ölkə arasında sülh sazişi mətni artıq hazırdır və onun imzalanmasının qarşısında ciddi bir maneə yoxdur.

Lakin təbii ki, Bakını narahat edən məsələlər qalmaqdadır. Xüsusilə də Ermənistan Konstitusiyası və Müstəqillik Bəyannaməsində ərazi iddialarını əks etdirən müddəaların qalması, eləcə də Zəngəzur dəhlizinə dair açıq suallar Azərbaycanın sülhə ehtiyatla yanaşmasına səbəb olur.Ermənistanın da problemləri mövcuddur. Məsələn, Bakının sülh müqaviləsinə dair əlavə şərtləri Paşinyanı daxili auditoriya və müxalifət qarşısında çətin vəziyyətə salır. Buna baxmayaraq, tərəflərin ötən ay Birləşmiş Ərəb Əmirliklərində sülh danışıqları aparması və bu prosesin müsbət atmosferdə keçməsi Vaşinqtonda baş tutacaq görüşə ümidləri artırır.Tramp yaxşı anlayır ki, Ermənistan-Azərbaycan münaqişəsi həlli mümkün olan ən asan beynəlxalq münaqişələrdən biridir. Çünki rəsmi Bakı münaqişənin ən mürəkkəb mərhələsi olan Qarabağ məsələsini artıq həll edib. Azərbaycanın, xüsusilə də xarici təsirlər nəticəsində şərti dövlət sərhədində baş verən təxribat cəhdlərinə təmkinlə yanaşması və gərginliyi artırmamaq mövqeyi onun sülhdə maraqlı olduğunu göstərir.

Bu isə Vaşinqton üçün əlavə stimul yaradır.ABŞ Ermənistanın, xüsusilə baş nazir Nikol Paşinyanın Qərbə inteqrasiya meyillərindən xəbərdardır. Bundan başqa, regionun enerji potensialı, eləcə də Azərbaycanın Qərbə enerji nəqlini artırmaq səyləri Vaşinqtonu razı salır. Təbii ki, bir də Trampın Nobel Sülh Mükafatı almaq niyyəti məsələsi var. Bütün bu faktorlar Vaşinqtonda keçiriləcək görüşün nəticə ilə yekunlaşması ehtimalını artırır. Lakin əsas sual budur: söhbət necə bir nəticədən gedir? Hər nə qədər sülh sazişinin mətni hazır olsa da, onun imzalanması üçün vaxt lazımdır. İstisna deyil ki, Vaşinqtonda ən yaxşı halda sülh sazişinin imzalanma yeri və tarixi müzakirə edilə bilər. Təbii ki, bu prosesdə maraqlı olan başqa güclər də var. Xüsusilə də Rusiya faktoru düşündürücüdür. ABŞ Prezidenti Donald Trampın xüsusi elçisi Stiven Uitkoffun bu baxımdan Rusiyaya səfəri diqqət çəkir. İstisna deyil ki, bu səfərin fərqli məqsədləri olub, lakin onlardan biri də Ermənistan-Azərbaycan sülh danışıqları ilə bağlıdır. Vaşinqton düşünür ki, İrəvan və Bakı arasında ortaq məxrəcə gəlinməsi mümkündür, lakin Kremlin bu prosesə əngəllər yaratmasından ehtiyat edir. Azərbaycanda olmasa da, Ermənistanda hələ də Rusiyanın təsir gücü, xüsusən də hərbi varlığı qalır.ABŞ bu məsələdə Rusiya ilə ortaq məxrəcə gəlməyə çalışır. Bunun mümkün olub-olmayacağını zaman göstərəcək. Amma bir məqam dəqiqdir: Vaşinqtonda tarixi görüş baş tutacaq. Hər şey plana uyğun getsə, həm Bakı, həm İrəvan, həm də Vaşinqton öz məqsədinə çatar".

***Ayşən Vəli***

# "Əhalinin artımı su böhranını dərinləşdirir"



## EKOLOQ ŞƏRH ETDİ

"Son 2-3 il ərzində Azərbaycan ərazisində yağıntıların miqdarı xeyli artıb". Bu sözləri SİA-ya açıqlamasında ekoloq Ənvər Əliyev deyib. Onun sözlərinə görə, ən quraq zonalarımızda, hətta Naxçıvanda belə əvvəlki illərlə müqayisədə yağıntıların miqdarı 50-60 faizdən çox artıb. Buna baxmayaraq, su problemi hələ də aktualdır. Problemin əsas səbəblərindən biri ondan ibarətdir ki, ölkə ərazisində daxili miqrasiya düzgün tənzimlənməyib: "Xüsusilə Bakıya olan güclü axın nəticəsində, əvvəllər təxminən 1-2 milyon nəfər üçün nəzərdə tutulmuş şəhər infrastrukturu artıq əhalisinin iki dəfə artmasına uyğun şəkildə su ilə təminatı qarşılayacaq səviyyədə deyil. Şəhərə axının yaratdığı digər çətinliklərlə yanaşı, bu da ciddi nöqsanlardan biridir.

Digər və ən vacib səbəblərdən biri isə ondadır ki, biz Azərbaycan ərazisinə düşən yağıntılardan yaranan yerüstü su ehtiyatlarından yetərincə istifadə edə bilmirik. Məsələnin kökü Sovet dövrünə qədər gedib çıxır. Həmin dövrdə bir sıra rayonlarda yerüstü su ehtiyatlarının səmərəli istifadəsi üçün layihələr mövcud idi. Bu layihələrin əsas məqsədi yağıntılı dövrlərdə səth sularının toplanması və gələcəkdə, xüsusilə quraqlıq vaxtlarında, bitkilərin suya tələbatının artdığı zamanda onlardan istifadə edilməsi idi.

Təəssüf ki, bu gün yağıntıların böyük əksəriyyəti sel şəklində axıb gedir və bu suların toplanması və istifadəsi mümkün olmur. Hazırda Ağsu çayı üzərində həcmi 28,5 milyon kubmetr olan su anbarının tikintisi nəzərdə tutulur. Bu məqsədlə sənədlər, razılaşmalar və layihələr hazırlanıb. Yağıntılı dövrdə, xüsusilə qış və yazın sonu, yay aylarının əvvəlində yaranan səth sularını toplamaq və onlardan quraqlıq zamanı istifadə etmək planlaşdırılır. Ağsu çayı ilə bağlı sənədlərə əsasən, bu layihə təxminən 9 min hektara qədər ərazinin suvarılmasına imkan verəcək. Bu həcmdə su hövzəsi kifayət qədər böyük bir sahəni quraqlıqdan qoruya bilər. Bundan başqa, 1967-ci ildə tikilmiş Cavanşir su anbarının da yenidən istifadəyə verilməsi nəzərdə tutulur. Təxminən 4,6 milyon kubmetr tutumu olan bu anbarın hazırda lillənmə səbəbindən su tutumu azalıb. Təmizləmə işlərindən sonra ilkin tutumuna çatdırılması planlaşdırılır. Bu anbar həm balıqçılıq, həm də ətraf ərazilərin suvarılması və əhalinin ehtiyaclarının ödənilməsi üçün istifadə oluna bilər.

Cari ilin iyul ayı nisbətən quraqlıq keçdiyindən, güclü yağışlar olmadı və nəticədə bir sıra problemlər yarandı. Vaxtilə bu cür su hövzələrinin bəziləri yerli icra hakimiyyətləri tərəfindən daxili imkanlarla yaradılırdı. Səth sularından istifadə üçün müəyyən çətinliklər olsa da, bu imkanlar daxilində müəyyən tədbirlər görülürdü. Lakin hazırda bu təşəbbüslər demək olar ki, yoxdur.

Əhali artdıqca suyun toplanması və saxlanması məsələsi daha da aktuallaşır. Suvarma sistemlərinin hələ də köhnə olaraq qalması isə vəziyyəti daha da ağırlaşdırır. Hazırda ən böyük problemlərdən biri məhz suvarma sistemlərinin modernləşdirilməməsidir. Əgər bu sahədə ciddi tədbirlər görülərsə və su ehtiyatlarından səmərəli istifadə təmin olunarsa, su problemi də aradan qalxacaq".

***Günel Fərzəliyeva***

## FELYETON



# Bir adamın neçə evi olmalıdır?..

Bir adamın neçə evi olmalıdır? Deyəcəksiniz ki, bir evi olsa, bəsdir də. Nə edəcək, adam bir evdə yaşayır da. Desək ki, iki evi olsun, onda da qayıdıb deyəcəksiniz ki, iki evi bir adam nə edir?

Yaxşı, bir adamın neçə maşını olmalıdır? Hamı bir ağızdan deyəcək ki, biri bəsdir də. İkincini kim sürəcək? Yaxşı, bununla da razıyıq. Amma gəlin bir görək, bunu deyən adam bir vəzifəyə gedəndən sonra da belə düşünəcəkmi?

***

Həsənqulu dünənədək sadə bir oğlan idi. Bir evi, bir maşını vardı. Başını salıb aşağı dolanırdı bir təhər. Bir gün Allahı gətirdi, getdi vəzifəyə. Vallah, özləri gizlədir, amma yerin də qulağı var, yerdən səs gəldi ki, bu adam durub-dayanmaq bilmir. Evdir, maşındır ki, alır, puldur ki, yığır. Məmmədqulu da dünənədək bir evli, bir maşınlı oğlanlardan idi. Günlərin bir günü getdi vəzifəyə. Aradan bir il keçmədi, Məmmədqulunun yerişi də dəyişdi, əyni-başı da, maşını da. Evinin ətrafına bir hasar çəkdi ki, oradan ha boylan ki, görə biləsən ki, içəridə nə var. Ay gördün, ay.

Hüseynqulu lap dəyişdi ey. Vəzifə bu adamı elə elədi ki, ta qonşularla salamını da kəsdi. Vallah, yalandoğru deyirlər, pul-pənəsini buralara etibar etmir, xarici banklarda saxlayır. Deyirlər, 10-dan çox evi var.

Nəcəfqulu arıq bir oğlan idi. Elə ki, vəzifəyə keçdi, vəzifə buna düşdü, həm də necə düşdü. Nəcəfqulu oldu 100-150 kiloqram, bəlkə də yanılıram, bundan da çox. Həm də deyirlər, adam yaman pul yığıb.

Hələ Rzaqulunu demirəm, bizim kimi sadə bir adamıydı da. İndi gəlin, baxın. Vəzifəyə getdi, həyatı dəyişdi. Evini deyək, maşınını deyək, dolanışığını deyək, hansını deyək? Pula da pul demir. Dünənədək arvaduşağı Sədərək bazarından yığılmırdı, indi "Mall"ardan çıxmırlar.

Əşi, özləri bilər ey, yığsınlar, xərcləsinlər. Bal tutan barmaq yalayacaq da. Bunu atalar deyib, biz uşaq-muşaq deməmişik ki. Amma başqa məsələ maraqlıdır ey. Səhərdən bəri mətləbə gəlmək üçün yola çıxmışam. Şükür, deyəsən gələ bildim.

Mətləb budur ki, ay qardaş, sənə bu vəzifəni verməyiblər ey, talançılıqla məşğul olasan. Birinci ona görə veriblər ki, iş görəsən, bir işə, əmələ yarıyasan. İkinci, başqalarından fərqləndirildiyin üçün qanadların yanında dura, göylərə avaz eyləməyə.

Amma çox halda belə deyil axı. Elə ki, vəzifə başına keçildi, məqsəd dəyişir. Adam başlayır pul yığmağa. Yığır, yığır, yığır, deməli, bu pul ailəni aşır, övladı aşır, nəvələri aşır, nəticələri aşır, kötücələri aşır, yadıcaları ( yadlaşmaqda olan nəsil) da aşır, lakin adam durmur. Eşidirsən ki, milyonları mənimsəyib, lakin gözü hələ də doymayıb.

Deyirəm, haradan alım Molla Nəsrəddini, gələ bunlara bir az ağıl-huş verə. Deyə ki, ay yazıqlar, dayanın, özünüzü biabır etməyin. Gözünüz doysun, nə edirsiniz? Bu qədər yetər. Vallah, heç qədrinizi övladınız bilməyəcək. Pulunuzu elə sovuracaq göylərə ki, baxıb görəcəksiniz ki, oba köçüb, yurdu qalıb. Nəvələriniz xərcləyəcək, amma inanın, bicə dəfə sizə rəhmət oxumayacaqlar. Nəticələriniz üzünüzü görə, ya görməyə. Xərcləyib, heç sizi əsla anmayacaqlar. Qaldı kötücəyə, yadıcalara, vallah, onlardan yana bu qədər həyəcana, qorxuya dəyməz. Çünki bu pulun axır-uxuru onlara çatacaq, az olduğu üçün hələ bir kəllənizi də söyəcəklər.

***Mətanət Məmmədova***

# Təbiətdən və təbiətindən ayırdığımız pişiklər

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə " ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb*

***Pişik pişiklər fəsiləsinə aid məməli heyvan cinsidir. Əslində Ulu Yaradan pişiyi yaradanda onu çöl heyvanı kimi yaradıb. Vəhşi təbiətdə pişik cinsinə aid aşağıdakı nümayəndələr yaşayır: Çin pişiyi (Felis bieti), Qamışlıq pişiyi və ya Xaus (Felis chaus), Manul (Felis manul), Barxan pişiyi (Felis margarita), Qaraayaq pişik (Felis nigripes), Çöl pişiyi (Felis silvestris), Ev pişiyi-çöl pişiyinin yarımnövü (Felis silvestris catus).***





İnsanların yaradanın yaratdıqlarına müdaxiləsi pişiyin də əhilləşdirilməsi və onun (Felis catus) növünün ev pişiyinə çevrilməsi ilə nəticələnib. Bu növ Felidae ailəsində yeganə evdə saxlanılan növdür və onu ailənin vəhşi üzvlərindən ayırmaq üçün çox vaxt ev pişiyi adlandırılır. Bir pişik ev pişiyi, bir ferma pişiyi və ya çöl pişiyi ola bilər. Çöl pişikləri sərbəstdirlər və insanla təmasdan qaçırlar. Lakin...



## Vəhşi təbiətdən evə

Vaxtilə vəhşi təbiətdən ayırıb əhilləşdirilən pişiklərin isə bununla taleyi dəyişmiş, onlar insanlara müxtəlif işlərdə kömək etmək üçün ev pişiyinə çevrilmişlər.

Məsələn, qədim Misirin dövlət kimi var olmasının əsas sütunları Nil və Nildən asılı olan əkinçilik sistemi idi. Nil vadisində əkinçiliklə məşğul olan insanlar məhsulları anbarlarda saxlamağa məcbur idilər. Təməl qida olduğu üçün onu qoruyub saxlamaq çox əhəmiyyətli məsələ idi. Ancaq böyük bir problem var idi: anbarlardakı siçanlar. Bu problemin ən optimal həlli isə məhz pişiklər idi. Pişiklər anbarlarda misirlilərin ən yaxın və sadiq dostuna çevrilməkdə idi. Çünki onlar qida təhlükəsizliyində açar rol oynayırdılar. Hətta pişiklərə olan münasibət zaman keçdikcə həm də müqəddəsləşmişdi: Fironların pişiklərin qorunması haqqında əmrləri onların toxunulmazlığını artırmış, hətta pişikləri öldürmək edam olunmaq üçün kifayət qədər güclü səbəb sayılırdı. Pişikləri müqəddəs hesab edən misirlilər ölümdən sonrakı həyatda da bərabər olmaq üçün pişiklərini mumiyalayırdılar. Heç təsadüfi deyil ki, pişiklər ölülər dünyasının qoruyucuları hesab olunurdu. Antik Misirdə pişiyə bağlılıq o qədər güclü idi ki, pişiyi ölən evdə yas qurular, ev sakinləri yas əlaməti kimi qaşlarını qırxardı.

Pişiklər ilk dəfə Yaxın Şərqdə eramızdan əvvəl 7500-cü ildə əhilləşdirilmişdir. Uzun müddət düşünülmüşdü ki, pişik əhliləşdirmə Qədim Misirdə başlayıb, çünki eramızdan əvvəl 3100-cü ildən bu yana qədim Misirdə pişiklərə ehtiram verilib. 2017-ci ildə Amerika Birləşmiş Ştatları şirin su balığından sonar, ikinci ən populyar ev heyvanına-95 milyon pişiyə sahib idi. Birləşmiş Krallıqda 2019-cu ilə qədər 4.8 milyondan çox evdə 7.3 milyon pişik yaşayırdı.

Elmi adı Felis catus 1758-ci ildə Carl Linney, Felis catus domesticus isə 1777-ci ildə Johann Christian Polycarp Erxleben tərəfindən təklif edilmişdir. 1904-cü ildə Konstantin Alekseevich Satunin tərəfindən təklif edilən Felis daemon Zaqafqaziyada qara pişik idi, sonradan ev pişiyi olaraq təyin olundu.

Bütün bunları xatırlatmaqda məqsədim, bəli, əslində vəhşi təbiət üçün yaradılan varlığın evlərimizə necə gəlməsi məsələsinə, təbiətdən ayırdığımız bu heyvanların ev tarixinin haradan başlanmasına nəzər salmaqdır.

Beləliklə, vəhşi təbiətin bir parçası olan pişiklər bizim məhsullarımızı və həyatımızı gəmiricilərdən qorumaq, onları ətrafımızdan yox etmək üçün evlərə gətirildi. Hansı ki, insan zəkası pişiyi evə gətirmək kimi, gəmiricilərlə digər mübarizə üsulları da tapa bilərdi. Lakin insan hər zaman asan yolu axtarıb tapdığı kimi, bu dəfə də asanlıqla vəhşi təbiətin nümayəndəsini evlərə gətirməyi, onlardan istifadə etməyi bacardı.

## Anatomiyaları da, həyatları da dəyişdi...



Pişik anatomiyada digər felid növlərə bənzəyir: güclü çevik bir bədənə, sürətli reflekslərə, iti dişlərə və kiçik yırtıcı kimi öldürmələrə uyğunlaşdırılmış geri çəkilə bilən qıvrımlara malikdir. Gecə görmə və qoxu hissi yaxşı inkişaf etmişdir. Pişik ünsiyyətinə pişik üçün xüsusi bir miyoldama kimi vokalizasiyalar daxildir. Təklikdə ovlayan bir yırtıcıdır. Siçanlar və digər kiçik məməlilər tərəfindən edilən səslər kimi insan qulaqları üçün çox həssas və ya çox yüksək səsləri eşidə bilər. Səhər və qaranlıq vaxtlarda ən fəal olan yırtıcılardandır.

Bəli, ötən dövrlərə kimi, heç olmasa, pişikləri yuxarıda təsvir olunan kimi görmək olurdu. Onlar evlərdə, zirzəmilərdə, həyətlərdə saxlanılır, insanlara öz faydalarını verir, onların məhsullarını gəmiricilərdən qoruyurdu. Yəni, pişik vəhşi təbiətdə olmada da, öz funksiyasını, anatomiyasına uyğun xüsusiyyətlərini heç olmasa, həyata keçirə bilirdi.

Bunun qarşılığında isə ev sahibləri ona ət verir, əməyini qiymətləndirirdi. Pişiklərin yeni doğulan balaları insanlar tərəfindən göydəndüşmə kimi qarşılanırdı. Çünki onların sayını həyətlərində artırmaqla həm özləri daha çox faydalanır, həm də bu balalardan qohum-qonşuya verməklə hörmət qazanırdılar. Çünki bu alış-verişlə pişiklər onların da məhsullarını qorumuş hesab olunurdu.

Nə edirdilər, özləri bilər, lakin əsas məsələ bu idi ki, pişiklər vəhşi təbiətdən ayrı düşsə də, heç olmasa bu evlərdə, evlərin həyət və zirzəmilərində sərbəst idilər və vəhşi təbiətdə necə yaşayacaqdılarsa, burada da o cür yaşayırdılar.

Daha sonra isə pişiklər şəhərlərdə də yaşamağa başladı. Bu dəfə sahiblərini gəmiricilərdən qorumaq üçün deyil, onları əyləndirmək, evlərini süstləmək üçün.

Artıq pişiklər satış bazarına çıxarıldı. Vəhşi təbiətdən qoparılan bu varlıqlar bu dəfə əsl ev heyvanlarına çevrildilər. Torpaqdan ayaqları kəsildi. İnsanlar kimi çoxmərtəbəli evlərdə yaşamağa başladılar. Onlar kimi müəyyən saat ərzində bayıra çıxıb, parklarda gəzməli oldular.

Ən dəhşətlisi isə bu oldu ki, onlara artıq ruzilərini özlərinin əldə etməsi də unutduruldu. Çünki iri pişik yemi bazarları yarandı. Buradakı sahibkarlar pişik yemi istehsalı, satışı ilə qazanc əldə edib başqalarından çox fərqli bir həyat yaşamağa başlayarkən, Yaradanın yaratdığı pişik vəhşi təbiətə "əlvida dedi". Onun yaradılışı əlindən alındı, anatomiyası məhz edildi. Dünənədək qaçan, sıçrayan, hoppanan pişiklərin sanki belindən ağır bir zərbə ilə vurub sümüklərini sındırdılar və onlar öz doğma xüsusiyyətindən əl çəkib anatomiyalarına da "əlvida" dedilər.

## Günəşin altında xor-xor yatan pişiklər

Uzağa niyə gedək ki... Bu gün şəhərimizdə çoxsaylı pişik var ki, onların yarısı evlərdə, yarısı isə elə öyrədilmiş şəkildə küçə, kafe, restoran və digər obyektlərdə saxlanır. Bəli, həm də tək süst və əyləncə üçün saxlanır.

Küçədə çox tez-tez vecsiz pişiklərə rast gəlirik. Günəşin altında xorxor yatan pişiklərə. Yanlarında binaların zirzəmisindən çıxıb o yana-bu yana qorxusuz qaçışan gəmiriciləri heç tanımırmış kimi bir həyat yaşayır bu pişiklər.

Yaşayış binalarının bloklarında veyil-veyil gəzən, pillələrdə yatan, gərnəşən onlarla pişiklə rastlaşırıq. Əslində onlara baxanda adamın ürəyi çıxılır. Vəhşi təbiətdən qoparılıb bu yerlərədək gətirilən pişiklər axı nə üçün bu həyatı yaşamalıdır, deyirsən. Nədir günahları?..

Bir anlığa insan özünün real həyatından qoparılıb ona məxsus, tanış olmayan bir həyata salınmasını düşünür və belə olarsa, ürəyinin partlamasının bir ana bağlı olduğunu dərk edir.

## Bəs belə isə...

Hər birimiz mağazalarda satılan pişik yemlərindən alırıq, onlara veririk, küçələrdə, parklarda su qabları qoyuruq ki, su içsinlər. Nə yaxşı ki, heç olmasa, bunu edirik. Lakin bu yemlər pişiklərin siçanovlama bacarığını əlindən alıb, bunun fərqində olan varmı?

Bu yemlər pişiyin anatomiyasını dəyişib. Onlara ələbaxan xarakteri "bəxş" edib. Küçələrdə hər addımda tökülüb qalan yemləri görürük. Pişiklər yeyir, doyur, yem isə artıq qalır. Bəzən bu mənzərələrdən ürəyimiz açılır, "gör biz nə qədər humanist insanlarıq" deyənlər də olur. Lakin təəssüf ki, belə deyil. Biz onların həyatını əllərindən almışıq. Vəhşi təbiətdə gündəlik dinamik həyatlarına son qoymuşuq: onlar nə ov, nə su axtarır ta. Saatlarla pusquda dayanıb ovunu əldə etmir. Ovunu yaxalayandan sonra onu saatlarla oynadıb xarakterinə uyğun olanları yaşaya bilmir.

Biz çox pislik etmişik pişiklərə, bunu unutmayaq. Onu insan kimi yaşamağa məcbur etməklə, həm mənəvi həyatını əlindən almışıq, həm də əməkdən, zəhmətdən uzaqlaşdırmışıq. Ən əsası isə onun qəribçilikdə yaşamasına bais olmuşuq. Vəhşi təbiətdən ayırıb evlərimizə qapadıb, eyni zamanda öz təbiətindən də uzaqlaşdırmışıq.

Sevək pişikləri, onları bir an da olsa, gözümüzdən kənar etməyək: yem də alaq, su da verək, onlar üçün sığınacaqlar da düzəldək. Lakin onları evlərə qapatmayaq. İnanın, danışmaq bacarıqları olsaydı, bizdən tək bunu istəyərdilər.

***Mətanət Məmmədova***

SƏS
8 avqust
2025-ci il

# Dünyanın cənnəti İsveç - 30 ildir isti sosis eyni qiymətə, sürətli internet də cəmi 9 dollara satılır...



***İsveç dünyadakı bütün insanların yaşamaq arzusunda olduqları bəlkə də tək ölkədir. Çünki bu ölkədə qiymətlər bahalaşmır, əksinə ucuzlaşır. Yüksək inflyasiya səviyyəsinə baxmayaraq, İsveçdə bu yay bir sıra mal və xidmətlər ötən illə müqayisədə ucuzlaşıb. İsveç Statistika İdarəsi (SCB), banklar və istehlakçı müşahidəçilərin son məlumatlarının təhlili göstərir ki, yanacaqdan tutmuş toxuculuq məhsullarına qədər azı on kateqoriyada qiymət azalması qeydə alınıb. Ən əhəmiyyətli azalma yanacaq sektorunda müşahidə olunub: iyunda benzin və dizel 2024-cü ilin eyni ayı ilə müqayisədə 13,1 faiz ucuzlaşıb.***

Və gələk ən əsas məqama. Bu ölkədə bəzi qiymətlər isə onilliklər ərzində demək olar ki, dəyişməz olaraq qalır. Bunun bariz nümunəsi 1990-cı illərin əvvəllərindən bəri 5 kron (48 sent) olan IKEA-da isti sosisdir. İnflyasiyaya uyğun olaraq, o, bu gün təxminən 16 kron (1,52 dollar) dəyərində olmalı idi, lakin əlverişlilik prinsipindən qiymət saxlanılır. Daha bir misal şəhər şəbəkələrindəki internetdir: təxminən 1,7 milyon mənzil ayda 100 kron (9 dollardan çox) müqabilində yüksəksürətli internet almağa davam edir ki, bu da praktiki olaraq 30 il əvvəlki qiymətə bərabərdir. Artıq biz İsveçi dünyan ın cənnəti də adlandıra bilərik...

***Mətləb Salahov***


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## "Barselona"da qalmaqal - Ter Ştegen kapitanlıqdan məhrum edilir




"Barselona" klubunda gərginlik yaranıb. Buna səbəb La Liqanın həkim komissiyası üçün zədə hesabatını imzalamaqdan imtina edən qapıçı Mark-Andre ter Ştegendir. Artıq ondan kapitanlıq sarğısının alınacağı bildirilir. Bu, Kataloniya təmsilçisinin rəhbərliyinin tələbidir. Baş məşqçi Hans-Diter Flik də 33 yaşlı futbolçuya qarşı intizam tədbiri olaraq yeni kapitanın təyin olunmasını istəyib.



## Bu gündən isti hava dalğası zəifləyəcək

Uzun müddət davam edən isti hava dalğasından sonra avqustun 8-i axşamdan şimal-qərb küləyinin arabir güclənəcəyi, 12-dək davam edəcəyi gözlənilir. Bu barədə SİA-ya Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Qeyd edilib ki, həftəsonu gələn həftənin ilk günlərində havanın temperaturu ötən günlərlə müqayisədə 3-5° aşağı enəcək. Küləyinin güclənməsi ilə əlaqədar Abşeron çimərliklərində istirahət edən əhalinin ehtiyatlı olması tövsiyə olunur. Dəniz suyunun temperaturu avqustun 9-10-11-də 27-29° isti olacaq.

## "Nar" ən yüksək nəticə göstərən abituriyentləri mükafatlandıracaq

Ölkənin sərfəli mobil operatoru "Nar" dövlət qəbul imtahanlarında ümumi qruplar üzrə ən yüksək nəticə toplayan ilk 10 abituriyenti mükafatlandıracağını elan edib. Belə ki, mobil operator tərəfindən tələbələrə daha rahat ünsiyyət üçün müasir smartfonlar, prestijli "Nar"mobil nömrələri və 700 AZN məbləğində balans təqdim ediləcək.Layihənin məqsədi universitet həyatına yeni başlayan gənclərin nailiyyətlərinə töhfə vermək və ali təhsilə daha yüksək həvəslə yanaşmalarına dəstək olmaqdır.

Xatırladaq ki, "Nar"ın bu ənənəsi 2018-ci ildən qəbul imtahanlarında maksimal bal yığan tələbələrin mükafatlandırılması ilə başlayıb. Təhsil hər bir sahə üzrə dayanıqlı inkişafın və səmərəli fəaliyyətin başlıca zəmanəti olduğundan elmin inkişafına dəstək "Nar"ın əsas korporativ sosial məsuliyyət istiqamətlərindən biridir."Nar"ın dəstəyi ilə təhsilin inkişafına yönəlmiş sosial layihələr haqqında daha ətraflı məlumatı buradan əldə edə bilərsiniz.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000